*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

24 fevral 2021-ci il № 65-68 (9443) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiymıəti 50 qəpik

## BU SAYIMIZDA


### ADDA-da 2021-ci ilin I yarısı üçün tələbə təqaüdləri təyin edilib




*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Heydər Əsədov 2020/2021-ci tədris ilinin payız semestrinin imtahan sessiyasını müvəffəqiyyətlə başa vuran tələbələrə təqaüdün təyin olunması haqqında əmr imzalayıb.*

Səh. 2

### XOCALI – CƏZASIZ QALAN CİNAYƏT

*Tarixin ən amansız soyqırımılarından birinin törədilməsindən 29 il ötür. Az vaxt deyil. Amma elə bil dünən olub o qandonduran faciə. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təkcə xocalıların deyil, bütün Azərbaycan xalqının yaddaşına qanlı göz yaşları ilə yazıldı. Bu, bir şəhərə, bir xalqa qarşı deyil, ümumən insanlığa qarşı yönələn amansız cinayət idi...*




Səh. 3

### Ömrü dənizlə naxışlanıb

*İnsan yalnız öz boyuna biçilmiş həyat yaşayanda xoşbəxt ola bilər. Bu mənada veteran dənizçi Şahid Orucov da xoşbəxtdir. 67 yaşın zirvəsindən geri çevrilib baxan gəmiçi ötən illəri əbəs yaşamadığını əminliklə deyir.*



Şahid Orucov 1954-cü ildə Qazaxın Kəmərli kəndində doğulub. Uşaqkən hər iki valideynini itirib.

Səh. 5

### ASCO tullantıların ekologiyaya mənfi təsirlərinin minimuma endirilməsini diqqətdə saxlayır

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) gəmilərin istismarı və sahil obyektlərinin fəaliyyəti nəticəsində yaranan maye və bərk tullantıların su mənbələrinə, qrunta və havaya ekoloji mənfi təsirlərinin minimuma endirilməsini daim diqqətdə saxlayır.*




Səh. 6

### Xəzərdə problemlə üzləşən Qazaxıstan gəmisi ASCO dənizçilərinin köməkliyi ilə sahilə gətirilib

*Fevralın 8-də Xəzər dənizində Qazaxıstanın "Kazmortransflot" Milli Dəniz Gəmiçiliyi şirkətinə məxsus "Turkestan" yük gəmisində tüstüləmə olub.*




Səh. 7

### "ASCO Arena"da keçirilən görüş "dənizçilər"in 2:0 hesablı qələbəsi ilə başa çatıb

*Fevralın 19-20-də futbol üzrə Azərbaycan Premyer Liqasında XVI turun oyunları keçirilib.*



Turun açılış matçında "Səbail" klubu "Sabah" komandasını qəbul edib. "ASCO Arena"da keçirilən görüş meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Səh. 8


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

1. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 26; 2016, № 2 (II kitab), maddə 348, № 3, maddə 448; 2020, № 5, maddə 601) 2-ci hissəsi və 3.1–3.3-cü bəndləri aşağıdakı redaksiyada verilsin:

"2. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

2.1.2. Cəmiyyətin Müşahidə Şurasının və icra orqanının üzvlərinin, o cümlədən onların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan İnvestisiya Holdinqinə:

2.2.1. Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiq edilməsi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

2.2.2. Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

2.2.3. Cəmiyyətin dividend siyasətinin təsdiq edilməsi;

2.2.4. Cəmiyyətin qiymətli kağızlarının buraxılması barədə qərar qəbul edilməsi;

2.2.5. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi.";

"3.1. Cəmiyyətin fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirmək məqsədilə sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.2. Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətləri aşağıdakılardır:

3.2.1. Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;

3.2.2. Cəmiyyətin xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək;

3.2.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına dair ümumi yığıncağa təkliflər vermək;

3.2.4. aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdləri təsdiq etmək;

3.2.5. mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla Cəmiyyətin aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılıq vermək;

3.2.6. fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları, habelə filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək;

3.2.7. Cəmiyyətin korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək;

3.2.8. Cəmiyyətin Audit Komitəsini və digər komitələrini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

3.2.9. bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Cəmiyyətin Nizamnaməsi və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan İnvestisiya Holdinqi:

3.1. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin idarə olunmasına dair korporativ idarəetmə standartlarını, habelə onun idarəetmə orqanlarının üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi sistemini altı ay müddətində təsdiq etsin;

3.2. beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, mövcud müqavilə öhdəliklərinə riayət olunması şərtilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin nəticələrinin diaqnostikasının aparılmasını iki ay müddətində təmin edib nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamın 3.2-ci bəndində nəzərdə tutulan diaqnostika başa çatdıqdan sonra onun nəticəsindən asılı olaraq "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yeni nizamnaməsinin və strukturunun layihəsini iki ay müddətində hazırlayıb razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 fevral 2021-ci il.***

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

1. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 316; 2016, № 2 (II kitab), maddə 339; 2017, № 8, maddə 1521; 2020, № 5, maddə 602) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədən "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində" sözləri çıxarılsın;

1.2. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

3.1.2. Cəmiyyətin Müşahidə Şurasının və icra orqanının üzvlərinin, o cümlədən onların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan İnvestisiya Holdinqinə:

3.2.1. Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiq edilməsi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

3.2.2. Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

3.2.3. Cəmiyyətin dividend siyasətinin təsdiq edilməsi;

3.2.4. Cəmiyyətin qiymətli kağızlarının buraxılması barədə qərar qəbul edilməsi;

3.2.5. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi.";

1.3. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Müəyyən edilsin ki:

3-1.1. Cəmiyyətin fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirmək məqsədilə sədr də daxil olmaqla 3 (üç) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3-1.2. Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətləri aşağıdakılardır:

3-1.2.1. Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;

3-1.2.2. Cəmiyyətin xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək;

3-1.2.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına dair ümumi yığıncağa təkliflər vermək;

3-1.2.4. aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdləri təsdiq etmək;

3-1.2.5. mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla Cəmiyyətin aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılıq vermək;

3-1.2.6. fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları, habelə filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək;

3-1.2.7. Cəmiyyətin korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək;

3-1.2.8. Cəmiyyətin Audit Komitəsini və digər komitələrini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

3-1.2.9. bu Sərəncamın 3-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Cəmiyyətin Nizamnaməsi və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan İnvestisiya Holdinqi:

3.1. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin idarə olunmasına dair korporativ idarəetmə standartlarını, habelə onun idarəetmə orqanlarının üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi sistemini altı ay müddətində təsdiq etsin;

3.2. beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, mövcud müqavilə öhdəliklərinə riayət olunması şərtilə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin nəticələrinin diaqnostikasının aparılmasını iki ay müddətində təmin edib nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamın 3.2-ci bəndində nəzərdə tutulan diaqnostika başa çatdıqdan sonra "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin nizamnaməsinin layihəsini, strukturuna və nizamnamə kapitalının miqdarına dair təkliflərini iki ay müddətində hazırlayıb razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 fevral 2021-ci il.***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri

**Müşahidə Şurasının üzvləri**

Rəhman Hümmətov – Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Mətin Eynullayev – Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini

Zaur Qurbanov – Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini

Vüqar Məcidli – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 fevral 2021-ci il.*

## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Xalid Əhədov – Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

**Müşahidə Şurasının üzvləri**

Rəhman Hümmətov – Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Xəyyam Məmmədov – Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 fevral 2021-ci il.*



## Magistrlar karantin rejiminin tələblərinə ciddi riayət etməklə dərslərə qatılırlar

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasında 2020/2021-ci tədris ilinin II semestrində magistratura pilləsi üzrə ənənəvi təhsil bərpa olunub.***

Tələbələr fevralın 15-dən tədris prosesinə cəlb ediliblər.

Magistrlər karantin rejiminin tələblərinə ciddi riayət etməklə dərslərə qatılırlar.

## ADDA-da 2021-ci ilin I yarısı üçün tələbə təqaüdləri təyin edilib

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Heydər Əsədov 2020/2021-ci tədris ilinin payız semestrinin imtahan sessiyasını müvəffəqiyyətlə başa vuran tələbələrə təqaüdün təyin olunması haqqında əmr imzalayıb.***




Əmrə əsasən, ADDA-nın “Gəmi sürücülüyü” fakültəsinin “Dəniz naviqasiyası mühəndisliyi” və “Gəmiqayırma və gəmi təmiri mühəndisliyi” ixtisaslarının bakalavriat pilləsində təhsil alan 57 tələbə “əlaçı” təqaüdünə layiq görülüb. Bu tələbələr imtahan sessiyasını 91-100 bal aralığında göstərici ilə bitiriblər.

200 tələbə növbəti semestrdə “həvəsləndirici” təqaüd almaq şansını qazanıb. Qaydalara görə, bu tələbələrin imtahan sessiyası üzrə ümumi orta balı 71-100 və ən azından bir akademik fənn üzrə göstəricisi 91-100 bal arasında olmalıdır.

“Gəmi sürücülüyü” fakültəsinin 53 tələbəsi isə “adi” təqaüd alacaq.

Fakültənin magistratura pilləsində təhsillərini davam etdirən 4 magistrant “əlaçı”, 15 magistrant “həvəsləndirici” və 2 magistrant “adi” təqaüdə layiq görülüb. Magistrantlar üçün də təqaüdün təyin edilməsi zamanı imtahan göstəriciləri bakalavrlarda olduğu kimi eyni qaydada nəzərə alınır.

Akademiyanın “Gəmi mexanikası və elektromexanikası” fakültəsinin “Gəmi energetik qurğuları mühəndisliyi”, ”Elektrik mühəndisliyi” və “Elektrik və elektronika mühəndisliyi” ixtisaslarının imtahan sessiyasını uğurla başa vuran tələbələri də gələn semestr təqaüd almaq hüququnu qazanıblar.

Belə ki, fakültənin 21 bakalavr tələbəsi “əlaçı”, 156 tələbəsi “həvəsləndirici”, 95 tələbəsi isə “adi” təqaüd alacaq.

“Gəmi mexanikası və elektromexanikası” fakültəsinin magistratura pilləsinin 3 magistrantı “əlaçı”, 4-ü “həvəsləndirici”, 4-ü isə “adi” təqaüd almaq hüququnu qazanıb.

“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Akademiyanın 1 tələbəsi “əlaçı”, 5 tələbəsi “həvəsləndirici”, 1 tələbəsi isə “adi” təqaüd miqdarının 2 mislini alacaq.

## Nəqliyyat və rabitə sahəsində tədqiqat və inkişaf üzrə əməkdaşlıq memorandumu imzalanıb

***Azərbaycan ilə Türkiyə nəqliyyat və rabitə sahəsində tədqiqat və inkişaf üzrə əməkdaşlıq memorandumu imzalayıb.***



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib ki, fevralın 20-də Türkiyədə səfərdə olan nazir Rəşad Nəbiyev qardaş ölkənin nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlu ilə nəqliyyat, kibertəhlükəsizlik və rabitə sahələrində qarşılıqlı maraq doğuran məsələləri müzakirə edib. Görüşdə müvafiq sahələr üzrə əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik bildirilib.

Həmçinin R.Nəbiyevlə Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank arasında görüş keçirilib. Görüşdə İKT, innovasiyalar üzrə əməkdaşlıq məsələləri və qardaş ölkənin uğurlu təcrübəsinin Azərbaycanda tətbiqi müzakirə predmeti olub.

Bundan əlavə, Türkiyənin rəqəmli transformasiya ofisinin rəhbəri Ali Taha Koçla görüş baş tutub. Görüş zamanı süni intellekt, böyükhəcmli məlumatlar və “Hökumət buludu” mövzusunda gələcək əməkdaşlıq imkanları müzakirə edilib. Müştərək layihələrin icrası və təcrübə mübadiləsi barədə razılığa gəlinib.

Eyni zamanda, R.Nəbiyev Türkiyənin İnformasiya və Kommunikasiya Texnologiyaları Qurumunu ziyarət edib. Nazir Türkiyənin telekommunikasiya və poçt xidmətləri, tənzimləmə qaydaları və təcrübəsi ilə tanış olub.

Səfər çərçivəsində Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyi arasında nəqliyyat və rabitə sahəsində tədqiqat və inkişaf üzrə əməkdaşlıq memorandumu imzalanıb.

## Vətən müharibəsində iştirak edən dənizçi Ərəstun Əbilzadə:

## "Qalib gələcəyimizə inanırdıq"

***Ərəstun Əbilzadə 13 may 1993-cü ildə Biləsuvar rayonunun Bəydili kəndində doğulub. 2010-cu ildə orta təhsilini bitirərək Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olub. Burada “Gəmiçilik və gəmilərin hərəkətinin idarəedilməsi” ixtisası üzrə təhsil alıb.***

Akademiyanı bitirdikdən sonra hərbi xidmətə gedib. Müddətli həqiqi hərbi xidmətdən sonra 2015-ci ildə ASCO-nun “Ramiz Hacıyev” gəmisində matros kimi işə başlayıb. Bir il sonra isə kapitanın III və qısa müddətdə kapitanın II köməkçisi vəzifəsinə yüksəlib. Hazırda “Şahdağ” gəmisində kapitanın II köməkçisi işləyir.

Ərəstun Əbilzadə Vətən müharibəsində iştirak edən 58 nəfər ASCO əməkdaşından biridir. 44 günlük haqq savaşında qəhrəmanlıqla, böyük qürurla döyüşüb. Gəmiçi fədakarlığını bu dəfə dənizin ortasında deyil, döyüş meydanında sübuta yetirib.

**- Vətən müharibəsi başlayanda dənizdə deyildiniz?**

- Ermənilərin növbəti təxribatından təxminən 10 gün əvvəl kapitanın böyük köməkçisi sertifikatını almaq üçün məzuniyyət götürmüşdüm. Yaxşı ki, bu qərarı vermişdim. Çünki, dənizə getsəydim, şərəfli yoldan məhrum olacaqdım. Buna görə özümü şanslı sayıram. Mən döyüşlərə qısmən səfərbərlik elan olunan gündən qatıldım. Əvvəlcə Ağcabədidə təlimlərdə oldum. Döyüş yolum isə Xocavənddən başladı. Daha sonra Ağdam istiqamətində gedən döyüşlərdə iştirak etdim.

**- 27 sentyabr tarixini necə xatırlayırsınız?**

- Biz əksəriyyətimiz müharibəni filmlərdə görmüşdük. Topun, tankın,



minamyotun, pilotsuz uçuş aparatının nə olduğunu bilmirdik. Buna baxmayaraq hər birimizin ürəyində vətən sevgisi var idi və biz qalib gələcəyimizə inanırdıq. İlk gündən də üstünlüyü ələ ala bilmişdik.

**- Yayılan videolardan da hiss olunurdu ki, ön cəbhədə böyük ruh yüksəkliyi var idi.**

- Döyüşlərin ilk günündə Qərargah rəisimiz bizi yığıb çıxış elədi. Bu elə bir çıxış idi ki, hamımızı ruhlandırdı. O bizi qələbəyə inandırmışdı. Həm də ürəyimizdəki Vətən, torpaq eşqi bizim ruh yüksəkliyimizi aşağı sala bilməzdi. Və əlbəttə ki, arxa cəbhədən gələn dəstəyi də unutmaq olmaz. Əsasən də mənəvi dəstək biz döyüşçüləri çox qürurlandırırdı. Mülki şəxslərdən aldığımız məktubları açıb oxuyanda nə qədər şərəfli bir iş gördüyümüzün fərqinə daha çox varırdıq.

**- Qəhrəmanlıq necə hissdir?**

- Doğrudur, döyüşlərdə iştirak etmişəm, amma özümü qəhrəman saymıram. Mənim qəhrəmanlarım müharibədə şəhid olanlar, yaralananlardır. Hər zaman özümü onlara borclu sayacağam.

**- Dənizçilər fədakardılar, cəsurdular. Bəs, maraqlıdır ki, dənizçi olmağınız döyüşlərdə köməyinizə gəlirdimi?**

- Biz dənizə çıxarkən hər bir təhlükəni gözə alırıq. Fırtına, dənizin ortasında qəza və s. Döyüşlərə də bu hisslərlə gedirdim. Məni heç bir çətinlik, heç bir düşmən təxribatı qorxutmurdu. Digər tərəfdən dəniz bizim iradəmizi, səbrimizi möhkəmləndirdiyi üçün döyüşlər çətin olmadı. Və əlbəttə, dənizçilərimizin vətənpərvərliyi hamıya məlumdur. Bunu elə gəmilərin adlarına baxsaq, bilmək olar. Əksəriyyəti şəhid dənizçi adları, Qarabağ torpaqlarının adlarını daşıyır.

**- Yeri gəlmişkən, döyüşlər zamanı dənizçi yoldaşlarınızla əlaqə yarada bilirdiniz?**

- İlk 10 gündə demək olar, heç kimlə əlaqə qurmaq mümkün deyildi. Heç ailəmlə də danışmadım. Sonrakı günlərdə dostlarımla danışırdım. Qardaşımla danışanda bütün dənizçi dostlarım mənimlə maraqlandığını, necə dəstək verə biləcəklərini soruşurdular. Bunları eşidib, həm dənizçi dostlarımla qürur duyurdum, həm də döyüş ruhum artırdı. Gəmidə işləyən dostlarla bərabər, rəhbərlik də maraqlanırdı.

**- İndi özünüzü necə hiss edirsiniz?**

- Hər şey qaydasındadır, sağlamlığım da yerindədir. Artıq işə başlamışam. Bu dəfə dənizə daha qürurlu şəkildə çıxdım. Qalib Azərbaycanın qalib vətəndaşı və dənizçisi kimi.

*Rövşən ABDURƏHMANOV*

## Aralıq dənizi vasitəsilə miqrant axını zəifləsə də...

***İtaliyanın Lampeduza adası yaxınlığında növbəti dəfə qaçqınlar olan qayıq qəzaya uğrayıb.***

İtaliya Sərhəd Mühafizə Xidməti helikopterlərin də cəlb olunduğu xilasetmə əməliyyatında 47 nəfəri dənizdən xilas edə bilib. Məlumata görə, qayıqda olan daha beş nəfər itkin düşüb.

Qeyd edilməlidir ki, pandemiya ilə əlaqədar İtaliyaya Aralıq dənizi vasitəsilə miqrant axını zəifləsə də, son həftələrdə bu istiqamətdə yenidən canlanma müşahidə olunur. Təkcə fevralın 18-dən indiyədək



Lampeduza adasında 302 miqrant sahilə çıxıb, Pantelleria adasına gələn qaçqınların sayı isə 56 nəfər olub. İlin əvvəlindən indiyədək ümumilikdə 2696 nəfər dəniz yolu ilə İtaliya sahillərinə çıxaraq sığınacaq üçün müraciət edib.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, fevralın 19-da Liviyanın Tripolis şəhərinə dörd qayıq geri qaytarılıb. İtaliya adaları istiqamətində hərəkət edən qayıqlarda ümumilikdə 341 qaçqın olub. Bu ilin əvvəlindən Liviya Sahil Mühafizə Xidməti təxminən 2500 şəxsi dənizdən xilas edərək Afrika sahillərinə geri qaytara bilib.

*Elgün Niftəli*

## Beyinləri miflərlə doldurulmuş ermənilər reallığı dərk edə biləcəklərmi?

***Bütün cəmiyyətlərdə hərbi məğlubiyyətdən sonrakı dövrün özünəməxsus, amma ümumi qanunauyğunluğa əsaslanan ictimai-sosial yaşantıları olur. Konfliktologiya mütəxəssislərinin rəyinə görə, hərbi məğlubiyyətdən sonra cəmiyyət bu spesifik yaşantılarla bir neçə mərhələni adlamalıdır: Məyusluq, qəzəb, qisasçılıq, reallığın dərkedilməsi və nəhayət, məğlubiyyətin qəbul edilməsi.***

“Böyük Ermənistan” xülyası ətrafında qonşularımızın 100 ildən çox davam edən mif yaradıcılığı Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə birdəfəlik məhv edildi. Erməni cəmiyyətində post-müharibə dövrünün sarsıntıları mütəxəssislərin müəyyən etdiyi ardıcıllıqla davam etdirilməkdədir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Cavanşir Feyziyev bildirib.

Deputat deyib: “Məyusluq elə sentyabrın 27-də başlanmışdı və bu Ermənistan parlamentində müzakirələr zamanı özünü təmkinli göstərməyə çalışan siyasətçilərin davranışında da aydın görünürdü. Sonrakı 44 gün ərzində getdikcə dərinləşən məyusluq və qorxunu isə erməni cəmiyyəti artıq gizlədə bilmirdi, utanc və həya hisslərini kütləşmiş ermənilər acizanə yalvarışlarla bütün dünyadan imdad diləyirdilər. 10 noyabr tarixli üçtərəfli Bəyanatının imzalanmasından dərhal sonra Yerevanda baş verənlər ermənilərin qəzəb fazasına keçidinin nümayişi idi. Cəmiyyət öz qəzəbini hökumət evində və parlament binasında baş verən dağıdıcılıq və qarətçiliklə soyutmağa cəhd göstərirdi. Amma təbəqən qorxaq və hiyləgər olan ermənilər bu mərhələni də sürətlə keçdilər. 17 siyasi partiyanın birləşdiyi “Vətənin xilası naminə hərəkat” fasiləsiz mitinqlərə çıxaraq qisasçılığa çağırdılar. Psevdo-siyasətçilərin qisas şüarları ilk növbədə ölkənin hakimiyyətinə və şəxsən baş nazirə qarşı yönəlmişdi. Guya hakimiyyətin devrilməsindən sonra silahlanıb itirilmiş torpaqları geri alacaqdılar. Lakin birləşmiş müxalifətin cəmi 1-2 həftə davam edən mitinqləri tez bir zamanda seyrəlməyə başladı və fürsətdən istifadə edərək qisasçılıq zəminində siyasi hakimiyyətə gəlməyə cəhd edənlər küçələrdə tək-tənha qaldılar. Beləliklə, ermənilər ilk üç mərhələni çox sürətlə keçdilər. Növbəti mərhələ erməni ağlının məntiqi ilə uzlaşmayan reallığın dərk edilməsi fazasıdır. Bax, burada bir az səbrli olmağımız lazım gələcək. Çünki 100 ildən çox bir müddət ərzində beyinləri miflərlə doldurulmuş ermənilərin reallığı dərk etməsi o qədər də asan olmayacaq. Buna baxmayaraq dünyanın müxtəlif bölgələrində, o cümlədən Ermənistanın özündə yaşayan bir neçə erməni ziyalısı öz soydaşlarının reallığı dərk etmələrinə kömək etməyə çalışırlar.

ABŞ-ın Lixay Universitetinin siyasi elmlər doktoru Arman Qriqoryan ABŞ İnkişaf Agentliyinin himayəsi altında fəaliyyət göstərən “Viewpoint” saytına verdiyi müsahibədə Ermənistanda məğlubiyyətdən sonrakı durumu dəyərləndirərkən belə deyir: “Həyatımızın bütün sahələrinə nüfuz etmiş “neokonservatizm” və “ermənilik” intellektual sahəni təhrifə məruz qoyub. Bir çoxlarına, o cümlədən hətta hakimiyyətin ən yüksək pillələrində oturanlara da elə gəlir ki, reallıq plastilin kimi bir materialdır və onlar onu istədiyi formaya sala bilərlər”.

Amerikalı erməni alim məhz indi, məğlubiyyətdən sonra ermənilərə yanlış yolda olduqlarını başa salmağın mümkünlüyünə inanır və buna çalışır. O deyir: “Məğlubiyyət onilliklər ərzində guya qoruyucu qalxan kimi başımız üzərində asılmış, əslində isə təlx rolunu oynayan “dənizdən dənizə Ermənistan” kimi mifik arzuların və “Ana vətən” kimi millətçi şüarların yeni şərhini vermeyə kömək edə bilər. Məsələn, uydurma “erməni məsələsi” tarixi Ermənistanın bütün ərazilərə üzərində müasir Ermənistanın suverenliyinin bərpa edilməsi kimi müəyyən edilib. Ağlı başında olan istənilən adama aydın olmalıdır ki, praktiki məqsəd kimi bu bir cəfəngiyatdır və onun heç vaxt reallığa çevrilmək şansı yoxdur. Buna baxmayaraq bizdə bu ideyanı təbliğ edən bütöv bir sənaye qurulub. Onlar öz təbliğatlarında “tarixi ədalət” anlayışına istinad edir, özlərini və başqalarını da inandırmağa çalışırlar ki, guya uydurma “tarixi ədalət” ideyasının hansısa bir siyasi əhəmiyyəti var.”

1994-1997-ci illərdə Ermənistan prezidenti Levon Ter-Petrosyanın baş müşaviri və Təhlükəsizlik Şurasının katibi vəzifələrində çalışmış, hazırda Miçiqan Universitetinin professoru Jerar Libaridyan bir sıra müsahibə və məqalələrində erməni siyasətçilərinin yol verdiyi yanlışlıqlara aydınlıq gətirərək məğlubiyyəti qəbul etməkdən başqa bir yolun olmadığını söyləyir.

Otuz ilə yaxın müddətdə Ermənistanda aparılan faşizm siyasətinə etirazını bildirərək ölkəni tərk etmiş, hazırda xaricdə yaşayan erməni siyasi fəallarının da bir hissəsi Azərbaycanın qələbəsini haqlı və ədalətli nəticə hesab edir və erməni cəmiyyətinə öz mesajlarını “YouTube” kanalları vasitəsilə çatdırırlar.

Ermənistan cəmiyyətinin özündə də dərketmə prosesinin ilk işartıları görünməkdədir. Erməni sosial şəbəkələrində Azərbaycan və Türkiyə ilə sərhədlərin açılmasını dəstəkləyən, eləcə də Köçəryan-Sarkisyan cütlüyünün və digər revanşist qüvvələrin siyasi hakimiyyətə qayıtmaq istəklərinə qəti etiraz edən vətəndaşların sayı artmaqdadır. Bu günlərdə yayımlanmış belə video-çıxışlardan birində erməni hüquq müdafiəçisi İşxan Verdiyan Paşinyana qədər hakimiyyətdə olmuş bütün siyasətçiləri cənilər və erməni xalqının düşmənləri adlandırır, onların ən ağır cəzaya layiq olduqlarını bildirir. İşxan Verdiyan Paşinyandan təcili olaraq Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanımağı tələb edir, Azərbaycan və Türkiyənin tarix boyu ermənilərə əl tutduğunu, öz xalqının isə türk xalqına qarşı nankorluq göstərdiyini deməkdən belə çəkinmir.

Beləcə, erməni cəmiyyətində reallığın dərk edilməsi prosesi başlayır. Reallığın doğru və obyektiv dərk edilməsi isə, ilk növbədə, erməni xalqının özünə hava-su kimi lazımdır”.

## Ölkədə muzdla çalışan işçilərin sayı 1 milyon 691,8 min nəfər olub

***Cari il yanvarın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən, 1 milyon 691,8 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 910,8 min nəfər, qeyri-dövlət sektorunda isə 781 min nəfər təşkil edib.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda 33,8 min nəfər, qeyri-neft-qaz sektorunda isə 1 milyon 658 min nəfər çalışıb.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 24,3 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,8 faizi tikintidə, 7,5 faizi emal sənayesində, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2 faizi mədənçıxarma sənayesində, 1,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təc-



hizatı sahələrində məşğul olub. Xidmət sahəsində işləyənlərin 19,6 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi istirahət, əyləncə və incəsənət, 1,8 faizi informasiya və rabitə, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrə xidmətlərin göstərilməsi və 1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışıblar.

2020-ci ilin sonuna ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş və müddəti uzadılmış iş icazələrinin qüvvədə olanlara malik olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 5287 nəfər olub. Onlardan 29,2 faizi tikintidə, 23,2 faizi mədənçıxarma sənayesində, 9,5 faizi emal sənayesində, 6,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 5,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,6 faizi təhsil və 20,6 faizi digər sahələrdə məşğul olmaq üçün iş icazələrinə malik olub.

İlkin məlumatlarına əsasən, bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 139,5 saat təşkil edib.

# X O C A L I   S O Y Q I R I M I  -  2 9

*26 fevral 1992-ci ildə Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi olduq. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə-yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.*

*Heydər ƏLİYEV,*
*Ümummilli Lider*

*Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Bu siyasət erməni diasporunun və lobbisinin imkanlarından istifadə edilməklə bütün dövrlərdə hərbi, iqtisadi, ideoloji və mədəni vasitələrlə aparılmışdır. Keçən əsrin səksəninci illərinin sonlarında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tammiqyaslı hərbi münaqişəyə gətirib çıxardı. Zaman-zaman davam etdirilən bi məkrli siyasət nəticəsində azərbaycanlılar əzəli torpaqlarından qovuldular, didərgin salındılar, yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

## Dünya ictimaiyyətinin Xocalı soyqırımına adekvat reaksiya verməməsi mənəviyyatdan kənar olmaqla yanaşı, həm də qəbuledilməzdir




***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar bəyanat yayıb. Bu barədə Ombudsman Aparatından məlumat verilib.***

Bəyanatda deyilir: "Bu il Xocalı soyqırımının 29-cu ildönümünü qeyd edirik. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərində Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Azərbaycanın Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyəti tərəfindən Xocalı soyqırımı törədilmişdir. İnsanlığa qarşı törədilmiş bu dəhşətli cinayət Ermənistan Respublikasının o vaxtkı siyasi rəhbərliyi tərəfindən təşkil edilmişdir.

29 il əvvəl törədilmiş Xocalı soyqırımı zamanı mühasirədə olan şəhərin dinc əhalisi üzərinə ağır hərbi texnika yeridilərək yerli əhali xüsusi qəddarlıqla qətlə yetirilib. Yandırılan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməyib, dinc sakinlər yollarda, meşələrdə pusqu qurularaq xüsusi amansızlıqla öldürülüb. Bu cinayət beynəlxalq hüququn norma və prinsiplərinin və əsas insan hüquqlarının kobudcasına pozulmasıdır. İnsanlığa qarşı törədilmiş bu dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Eyni zamanda, 487 nəfər dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi hələ də məlum deyil. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, insanların başlarının dərisi soyulub, müxtəlif əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilib. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib.

Xocalı faciəsi erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı yönələn işğal, etnik təmizləmə və soyqırımı siyasətinin növbəti dəhşətli nümunəsidir. Ermənistan tərəfindən yürüdülən bu siyasətin digər təzahürü 1990-cı illərin əvvəllərində Qazax rayonunun Bağanis Ayrım kəndində, Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı İmarət Qərvənd, Tuğ, Sələkətin, Xocavənd, Kərkicahan, Cəmilli, Meşəli, Axullu, Nəbilər, Həsənabad, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular kəndlərində azərbaycanlı əhaliyə qarşı törədilmiş etnik təmizləmə olmuşdur. Bundan başqa, Xocavənd rayonunun Qaradağlı, Kəlbəcər rayonunun Ağdaban kəndlərinin işğalı zamanı da çoxsaylı mülki şəxslər, o cümlədən uşaqlar, qadınlar və qocalar işgəncə verilərək qəddarcasına öldürülüb, onlarla mülki şəxs girov götürülüb və itkin düşüb.

Ermənistan tərəfindən insanlıq əleyhinə törədilmiş bu dəhşətli cinayətlər nəticəsində insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mövcud olan beynəlxalq sənədlərin, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarının, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın, Uşaq hüquqları haqqında Konvensiyanın və İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının tələbləri kobud şəkildə pozulub.

Xocalıda insanların məhz etnik mənsubiyyətinə görə və məqsədli şəkildə kütləvi məhvi BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsinə və 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul olunmuş Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyaya əsasən soyqırımı cinayəti kimi tövsif edilməlidir.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun təşəbbüsü əsasında 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermiş, 26 fevral tarixi "Xocalı soyqırımı günü" elan olunmuş və soyqırımı haqqında həqiqətlər dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılmışdır.

Soyqırımı faktlarının və erməni vəhşiliklərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası xüsusi rol oynamışdır.

Artıq Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentləri tərəfindən qəbul edilən müvafiq sənədlərdə Xocalıda törədilmiş kütləvi qırğın soyqırımı aktı kimi qəbul edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya və Paraqvay parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyib, İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı kimi tanıyıb.

Sülh prosesini tamamilə pozan və məsələnin danışıqlar yolu ilə həll olunma perspektivlərini tamamilə əngəlləyən, habelə yeni ərazilər işğal etmək istəyində olduğunu açıq şəkildə bəyan edən Ermənistan 2020-ci ilin iyulunda və sentyabr ayının sonlarında atəşkəsi yenidən pozaraq, Azərbaycan Ordusunun mövqelərini və mülki yaşayış məntəqələrini beynəlxalq səviyyədə qadağan olunmuş silahlardan istifadə etməklə atəşə tutmuşdur. Nəticədə 12-si uşaq olmaqla, 94 nəfər mülki şəxs həlak olmuş, 50-si uşaq olmaqla, 414 nəfər yaralanmışdır. Bu hücumlar nəticəsində 3410-dan çox ev, 120 çoxmənzilli yaşayış binası və çoxlu sayda məktəb, xəstəxana, uşaq bağçası da daxil olmaqla 512 mülki infrastruktur dağıdılmışdır.

Ermənistanın ölkəmizə qarşı təcavüzünün qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək, uzun müddət davam edən işğala son qoymaq məqsədilə 2020-ci ilin 27 sentyabr tarixində Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatı nəticəsində 30 ilə yaxın işğal altında olan ərazilərimiz azad edilmişdir. 2020-ci ilin noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistanın dövlət başçıları tərəfindən imzalanmış üçtərəfli Bəyanata əsasən, yüz minlərlə insana uzun müddət gözlədikləri öz dədə-baba torpaqlarına qayıtmaq və fundamental hüquqlarını bərpa etmək imkanı yaradılmışdır.

XX əsrin sonlarında dünya dövlətlərinin gözü qarşısında baş verən Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, eyni zamanda bəşəriyyətə qarşı törədilmiş cinayətdir. Soyqırımın törədilməsindən 29 il keçməsinə baxmayaraq, təəssüf ki, beynəlxalq ictimaiyyət tərəfindən bu soyqırımı aktına lazımi siyasi və hüquqi qiymət verilməyib, cinayəti törətmiş şəxslər hələ də məsuliyyətə cəlb edilməyib. İnsanlığa qarşı törədilmiş bu dəhşətli cinayətə münasibətdə biganəlik və ikili standartlar təcavüzkarda cəzasızlıq sindromunu gücləndirərək onu etnik təmizləmə və işğal siyasətini davam etdirməyə sövq edib. Dünya ictimaiyyətinin Xocalı soyqırımına adekvat reaksiya verməməsi mənəviyyatdan kənar olmaqla yanaşı, həm də qəbuledilməzdir, çünki gələcəkdə bu cür cinayətlərin təkrarlanmasına zəmin yaradır.

Bir daha beynəlxalq təşkilatları və dövlətləri Xocalı qətliamını törətmiş cinayətkarların ədalət mühakiməsi qarşısında cəzalandırılması üçün onu soyqırımı və bəşəriyyətə qarşı törədilmiş cinayət aktı kimi tanımağa çağırıram".

Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

## X O C A L I – C Ə Z A S I Z  Q A L A N  C İ N A Y Ə T




***Tarixin ən amansız soyqırımılarından birinin törədilməsindən 29 il ötür. Az vaxt deyil. Amma elə bil dünən olub o qandonduran faciə. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təkcə xocalıların deyil, bütün Azərbaycan xalqının yaddaşına qanlı göz yaşları ilə yazıldı. Bu, bir şəhərə, bir xalqa qarşı deyil, ümumən insanlığa qarşı yönələn amansız cinayət idi...***

Xocalı faciəsi deyiləndə bir gecəyə yer üzündən silinən şəhər, yalnız azərbaycanlı olduqları üçün qətliama məruz qalan dinc sakinlər başa düşülür. O gecə diri-diri yandırılan, dərisi soyulan, gözləri çıxarılan, başları kəsilən, qarnı süngü ilə deşilən əli silahsızların fəryadı kimsəyə çatmadı.

Məhvinə çox-çox əvvəl qərar verilmişdi Xocalının. Çünki "Dənizdən dənizə Ermənistan" xülyası ilə yaşayanların xülyasını gerçəkləşdirməyə mane olurdu Xocalı.

Strateji mövqedə yerləşməsi, Dağlıq Qarabağda yeganə mülki hava limanının bu şəhərdə olması erməni faşistlərinin 7 min əhalisi olan Xocalını yerlə-yeksan etmək həvəsini daha da artırırdı.

Bir gecənin içində aman demədən yüzlərlə günahsız insanı qətlə yetirən ermənilər bu soyqırımı ilə dünyanın ən vəhşi heyvanlarından daha qəddar, daha yırtıcı olduqlarını bir daha sübut etdilər. O vaxtdan Xocalı faciəsi deyiləndə bəşəriyyətə, insanlığa qarşı törədilmiş ən dəhşətli cinayət başa düşülür.

Dünyanın harasında olursa-olsun, Xocalı faciəsi deyiləndə bir insanın ürəyi ağrımırsa, o insanın insanlığına şübhə ilə yanaşın. Dünyanın harasında olursa-olsun, Xocalı faciəsi deyiləndə kimsə bu qətliamı törədənləri ən azı lənətləmirsə, lənət o adamlara...

29 il keçir bizim Xocalı boyda dərdimizdən. Amma nə qədər keçir-keçsin, neçə il ötür-ötsün, ağrımız elə o ağrıdır. Ayaqyalın meşəyə qaçmağa çalışan anaların namərd gülləsinə tuş gələrkən harayı, körpələrinin ürək parçalayan hönkürtüsü, yaşlıların ah-naləsi... qulağımızdan getmir. O gecə erməni gülləsindən yayına bilənlər də oldu. Amma onlar da çox uzağa gedə bilmədilər. Şaxtanın iliyə işlədiyi qış gecəsində ayaqyalın, başı açıq çox uzağa getmək olardımı? Meşələrə, dağlara üz tutanların əksəriyyətini yolda don vurdu.

"Dənizdən dənizə Ermənistan" ideologiyası altında Dağlıq Qarabağda azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirən, Xocalı soyqırımı kimi insanlıq əleyhinə cinayət törədən şəxslərin hələ də cəzalandırılmaması təkcə təəssüf doğurmalıdır?

Ermənilərin ən çox sevdiyi, oxuduğu yazıçı bilrsiniz kimdir? Cəllad, terrorçu Zori Balayan! Bu cani "Ruhumuzun canlanması" adlı kitabında özünün və mənsub olduğu xalqın cinayətlərini təkcə etiraf etmir, həm də bu cinayətlərlə öyünür, qürrələnir: "Xocalını ələ keçirdiyimiz zaman bir evə girdik. Xaçatur adında bir əsgərimiz 13 yaşlı bir türk (Azərbaycan) uşağını pəncərəyə mismarladı. Türk uşağı çox səs-küy salırdı. Xaçatura dedim ki, onun səsini kəs. Xaçatur isə anasının döşünü kəsib balasının ağzına tıxadı. Mən ixtisasca həkim olduğum üçün üstümdə olan tibb bıçağı ilə uşağın başının, sinəsinin, qarnının dərisini soydum. Saata baxdım. 13 yaşlı uşaq 7 dəqiqədən sonra öldü. Ruhum sevinclə qürrələndi. Xaçaturla








mən uşağın meyitini hissə-hissə doğradıq, tikələri itlərə atdıq və eyni şeyi daha üç türk uşağına qarşı etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bildim ki, hər bir erməni bizim etdiklərimizlə fəxr edəcək".

Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan da Xocalı soyqırımında şəxsən amansız qətllər törədib. Bunu da mən demirəm. Samvel adlı erməninin dedikləri sübut edir: "Ermənilər hadisələrin üçüncü günü meşədə Xocalıdan qaçsa da, getməyə yer tapmayan azərbaycanlılara rast gəlirdi. Qoca, qadın, uşaq olan bu dəstədə artıq son nəfəsini yaşayanlar, donub qalanlar və yaralılar var idi. Bizi görən kimi yalvardılar ki, onları öldürməyək. Biz də dedik ki, zinət əşyalarınızı, pullarınızı bəri verin, sizə dəyməyək. Qadınlardan biri dedi, "nəyimiz var, sizin olsun". Biz isə dedik ki, burda olanlar onsuz da bizimdir. Xocalıda nə gizlətmisiniz deyin, aparaq oradakı varidatı verin, sizi oradan Ağdama yola salacağıq.

Balayan aralıdan olanları izləyirdi. Əsirlər dedilər ki, nə var bunlardır, orda heç nələri qalmayıb. Zinət əşyaları, bank kartları, rus pasportları - nələri varsa, yığıb verdilər. Biz kənara çəkildik ki, aralıdan hamısını güllələyək, canımız qurtarsın. Bu vaxt Sarkisyan yaxınlaşdı ki, guya yoxladınızmı hamısını, bax, o qadının qulağında yeri qalıb sırğaların, yəqin udub. Göstəriş verdi ki, əllərini tutun. Biz qadının əllərini tutduq, müqavimət göstərmədi, gücü qalmamışdı. Özü qadının qarnını yardı, əlini salıb sırğaları və üzüyü çıxardı. Sonra avtomatı götürüb əsirləri güllələdi. Onun əynində kürk var idi. O qədər arıq idi ki, hərbi buşlatın yaxalığı onun çiyinlərinə keçirdi. Gözlərində eynək var idi. Başını bəlkə də illər idi ki, qırxdırmamışdı, qara, uzun saçı var idi. Əlinin qanını üstünə silib "bəri verin topladıqlarınızı" dedi. Sonra yığdıqlarımızı maşınına qoyub uzaqlaşdı. Yadımdadır, avtomobilinin nömrəsi NK 0001 idi".

Soyqırımıdan bir neçə il sonra, o zaman özünü "Dağlıq Qarabağ Respublikasının müdafiə naziri" adlandıran, Ermənistan keçmiş prezidenti Serj Sarkisyan britaniyalı jurnalist və yazıçı Tomas de Vaala müsahibəsində həyasızcasına Xocalıda soyqırımı törətdiklərini etiraf edib: "Xocalıya qədər azərbaycanlılar elə düşünürdü ki, bizimlə zarafat etmək olar, onlar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməz. Biz həmin stereotipi dağıtdıq. Və nə baş verdiyini gördünüz".

"Yüzlərlə insanın ölümünə görə təəssüflənirsinizmi?" sualına cavab olaraq Serj Sarkisyan kinlə deyib: "Heç bir peşmanlığım yoxdur. Bu cür sarsıntılar minlərlə insanın həyatı bahasına başa gəlsə də, zəruridir". İngilis publisisti Xocalıda cinayəti kimin törətdiyinə şübhə qoymayan bütün bu etirafları sonradan "Qara bağ" kitabına daxil etdi.

Bu gün müzəffər Azərbaycan Ordusu Ermənistan Silahlı Qüvvələrinin çirkin niyyətləri qarşısında keçilməz maneəyə çevrilib. Əgər ötən əsrin axırlarında bugünkü kimi qüdrətli Ordumuz olsaydı, son 30 ildə yaşadığımız faciələrin heç biri, o cümlədən Xocalı faciəsi baş verməzdi.

Noyabrın 10-da qazanılan Böyük Qələbə ilə bütün şəhidlərimizin ruhunu şad etdik. Qaldı zamanın ovundura bilmədiyi ağrılarımıza, Xocalı soyqırımı kimi insanlıq əleyhinə cinayət törətmiş şəxslərin cəzalandırılmasına nail olduqdan sonra bəlkə ağrılarımız bir qədər azala. Elə buna görə, Xocalı faciəsini daim gündəmdə saxlamalı, bütün dünyanın ermənilərin törətdiyi vəhşiliklərdən xəbərdar olması üçün gücümüzü və səylərimizi birləşdirməliyik. Biz birlikdə olanda ermənilərdən də, onların havadarlarından da qat-qat güclü oluruq.

***Rasif TAHİROV***






# “XOCALIYA ƏDALƏT!”

## Xocalı soyqırımı ilə bağlı yeni petisiya üçün kampaniya keçirilir

***“Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində yeni petisiya üçün imzatoplama kampaniyasına start verilib.***

Azərbaycan Respublikası Gənclər Fondundan bildiriblər ki, kampaniyanın məqsədi Xocalı soyqırımının dünyada daha geniş tanıdılması, bu faciəni törədənlərin hüquqi müstəvidə cinayət məsuliyyətinə cəlb edilməsi və xalqımızın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasıdır.

Beynəlxalq təşkilat və məhkəmələrə, eləcə də müxtəlif ölkələrin Xarici İşlər nazirliklərinə ünvanlanan petisiyada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda Ermənistan silahlı qüvvələrinin azərbaycanlılara qarşı törətdiyi soyqırımı barədə məlumat verilib. Ermənistanın hərbi-siyasi hakimiyyətinin törətdiyi bu cinayətə hüquqi müstəvidə qiymət verilməsi tələb olunub. Həmçinin Xocalı faciəsini törədən cinayətkarların məsuliyyətə cəlb edilməsi və faciənin soyqırımı aktı kimi qiymətləndirilməsi üçün çağırış ünvanlanıb.

“Xocalıya ədalət!” beynəlxalq kampaniyası tarixi ədalətin bərqərar olması, bəşəriyyətə qarşı belə cinayətlərin təkrar olunmaması naminə hər bir kəsi petisiyanı imzalamağa çağırır.

Petisiyanı imzalamaq üçün http://justiceforkhojaly.org/petition keçidindən istifadə etmək lazımdır.




# İNSANLIQ TARİXİNİN QARA LƏKƏSİ



***Tarixin müxtəlif dövrlərində ermənilər tərəfindən soyqırımına məruz qalmış Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin fevralında Xocalıda üzləşdi. Yaxın tariximizin ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımı xalqımızın qan yaddaşına əbədi həkk olundu. Təəssüflər olsun ki, Xocalı şəhəri tarixə Xocalı faciəsi kimi düşdü. Bu faciə görünməmiş amansızlıq, qəddarlıq və qətl faktları, öz miqyası və üsulları ilə dünyada və tarix qarşısında bir daha ermənilərin xislətini bütün aydınlığı ilə ortaya qoydu. Bəli, Xocalı faciəsi dünyada qətl və qəddarlıq simvoludur. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, politoloq Murtəza Həsənovun “İnsanlıq tarixinin qara ləkəsi: Xocalı soyqırımı” məqaləsini təqdim edirik.***

Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir. Tarixi faktlar göstərir ki, strateji baxımdan mühüm əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən erməni əhalisinin kütləvi şəkildə köçürülməsinə XIX əsrin əvvəllərində başlanmışdır. Çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan bu köçürülmə prosesi bütün XIX əsr boyunca davam etdirilib və nəticədə regionda demoqrafik vəziyyətə ciddi təsir göstərib. Ermənilərin sayının bu bölgədə süni surətdə çoxaldılması onların XX əsrin əvvəllərindən başlayaraq Azərbaycana qarşı ərazi iddialarının baş qaldırmasına əlverişli şərait yaradıb. Son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti Azərbaycan tarixinin ən qanlı səhifələrini təşkil edir. Bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaqla əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları “böyük Ermənistan” dövləti yaratmaq olub. Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi kimi daxil olub. Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn normalarına zidd olaraq, keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırımı aktını törədiblər. Azərbaycan xalqı bu faciəni ürəkağrısı ilə öz qəlbində yaşadır. Xocalı faciəsinin, eləcə də xalqımıza qarşı dəfələrlə törədilən soyqırımlarının ötən əsrin sonlarına qədər öz hüquqi qiymətini almaması illər boyu Azərbaycanın üzləşdiyi ən böyük ədalətsizliklərdən biridir. Sovetlər İttifaqının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai–siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan ölkəmizin üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması yeni tariximizə qara hərflərlə yazıldı. Azərbaycan xalqına qarşı aparılan misli görünməmiş bu soyqırımı, amansız qırğın aktı, erməni qəsbkarlarının ölkəmizin dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla bərabər, təkcə xalqımıza deyil, bütün insanlığa qarşı irimiqyaslı cinayətdir. Qanlı Xocalı qırğınını törətməklə Dağlıq Qarabağın hüdudlarından kənara çıxan Ermənistan Azərbaycana qarşı genişmiqyaslı təcavüzə başladı. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı 20 min vətəndaşımız öldürüldü, 50 min nəfərdən çox adam yaralandı və əlil oldu, ölkəmizin ərazisinin 20 faizi işğal edildi. Xalqımız misli görünməyən humanitar fəlakətlə üz-üzə qaldı. Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salındı, qaçqın və məcburi köçkünə çevrildi. 1988-1991-ci illər ərzində Dağlıq Qarabağ ətrafında çox ziddiyyətli, mürəkkəb vəziyyət yarandı. Öz dədə-baba yurdlarından - Ermənistandan zorla, vəhşiliklə qovulan azərbaycanlıların harayını eşidən yox idi. Ermənilər isə kütləvi şəkildə silahlanır, vilayətdə yaşayan azərbaycanlılara divan tutur, yurd-yuvalarından didərgin salırdılar. Dağlıq Qarabağda vaxtilə azərbaycanlılar 78 kənddə yaşayıblar. Hadisələr başlayandan sonra məlum oldu ki, orada cəmi beş-on Azərbaycan kəndi qalıb. Hələ hadisələrə qədər erməni daşnakları 230-a yaxın azərbaycanlı evini yandırıb, 200-dən artıq evi isə zəbt ediblər. Azərbaycan müstəqillik əldə etdikdən sonra erməni separatçılarının Dağlıq Qarabağda başladıqları təcavüzkar siyasət yüzlərlə kənd və qəsəbənin dağıdılması, on minlərlə günahsız insanın qanının axıdılması, yüz minlərlə insanın öz evindən, elindən didərgin salınması ilə nəticələnib. Lakin Xocalı faciəsi bunların ən dəhşətlisi olub. Azərbaycan xalqı torpaqlarımızın müdafiəsi uğrunda gedən müharibədə çox şəhidlər və qurbanlar verib. Ancaq Xocalı faciəsi qan yaddaşımıza xüsusi yazıldı. Xocalı ermənilər tərəfindən ilk dəfə ötən əsrin əvvəllərində 1905-ci ildə yandırılıb, külə döndərilib, əhalisi vəhşicəsinə qılıncdan keçirilib, qanına qəltan edilib. Onun doğma yurd həsrəti ilə qovurulan didərgin sakinləri ara səngiyəndən sonra yenidən ata-baba torpaqlarının yaralarını sağaltmaq, dağıdılmışları bərpa etmək, yıxılmışları ayağa qaldırmaq üçün geri qayıdıblar. Ermənilər 1918-ci ildə Xocalını ikinci dəfə yandırıb, külünü havaya sovurublar. 1992-il fevralın 25-dən 26-na keçən gecə Xocalıda yeni dəhşətli soyqırımı törədildi. Bu haqda nə qədər yazılsa da ürəyimizdəki bu dəhşət, bu ağrı, kin-küdurət, intiqam hissi yenə də susmaq bilmir və bilməyəcək də. Bəşər tarixində ən dəhşətli hadisələrdən biri olan Xocalı soyqırımının törədilməsindən bizi 29 illik bir zaman məsafəsi ayırır. O gecədə təpədən dırnağa qədər silahlanmış erməni quldur dəstələri Qarabağımızın Xankəndi bölgəsində yerləşən 366-cı rus alayı ilə birlikdə Xocalını yandırıb külünü göyə sovurdular. Əliyalın olan dinc sakinləri qəddarcasına qətlə yetirdilər, girov götürdüklərini təhqir və həqarətlərə, zülm və işgəncələrə məruz qoydular. Azərbaycan xalqı torpaqlarımızın müdafiəsi uğrunda gedən müharibədə çox şəhidlər və qurbanlar verdi. Ancaq Xocalı faciəsi qan yaddaşımıza əbədilik yazıldı. Bu, bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, vətəninə sədaqətinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi qüvvələrinin xocalılılara qarşı vəhşiliyidir. Faciənin törədilməsinin əsas səbəbi Xocalının erməni qaniçənlərinin yolu üstündə böyük maneə olması idi. Çünki Xocalı Dağlıq Qarabağda həm magistral şose yolunun, həm də dəmir yolunun üstündə yerləşirdi. Orada hava limanı da vardı. Buna görə də ermənilər hər vəchlə Xocalını ələ keçirməyə çalışırdılar. Hələ faciədən 4 ay əvvəl, yəni, 1991-ci il oktyabrın sonundan şəhərə gedən bütün avtomobil yolları bağlanmış və Xocalı faktiki olaraq mühasirəyə alınmışdı. Bununla yanaşı, yanvarın 2-dən Xocalıya verilən elektrik enerjisi də kəsilmişdi. Beləliklə, artıq Xocalının Azərbaycanın digər bölgələri ilə bütün əlaqələri kəsilmiş, yalnız yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Ancaq bir neçə ay sonra Xocalı ilə vertolyot əlaqəsi də kəsildi. Yəni 1992-ci ilin yanvarın 28-də Ağdamdan Şuşaya uçan Mİ-8 vertolyotu şəhərə çatmamış, Xəlfəli kəndinin üzərində Xankəndi tərəfindən raketlə partladıldı, içərisində olan 3 nəfər heyət üzvü və 41 sərnişin həlak oldu. Bundan sonra isə Ermənistan ordusu bir-birinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdilər. 1991-ci ilin sonunda Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Meşəli, Cəmilli, Umudlu, Kərkicahan və digər strateji əhəmiyyətə malik kəndlərimiz ermənilər tərəfindən yandırıldı, dağıdıldı və talan edildi. Xocalı şəhəri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində strateji əhəmiyyətli ərazi kimi ermənilərin işğalçılıq planlarına mane olurdu. Çünki Xocalı Xankəndindən 10 km cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında yerləşirdi. Şəhərin əhəmiyyətini artıran səbəblərdən biri də Dağlıq Qarabağın yeganə hava limanının məhz burada yerləşməsi idi. Buna görə Ermənistan silahlı qüvvələrinin əsas məqsədi Xocalıdan keçən Əsgəran-Xankəndi yoluna nəzarət etmək və Xocalıda yerləşən aeroportu ələ keçirmək idi. Xüsusi qəddarlıqla həyata keçirilən Xocalı soyqırımının törədilməsi zamanı ermənilər Azərbaycanın bu qədim yaşayış məskəninin yer üzündən silinməsini qarşıya məqsəd kimi qoymuşdular. Çünki Xocalı Azərbaycanın qədim dövrlərinə aid ərazilərdən biri kimi tarix və mədəniyyət abidələri ilə seçilirdi. Azərbaycanlılardan ibarət 7 min nəfərdən çox əhalisi olan Xocalı ermənilər yaşayan kəndlərin əhatəsində ən böyük və qədim yaşayış məskəni olub. Burada qədim tarixi abidələr müasir dövrə qədər qalmaqda idi. Məlumdur ki, Xocalı yaxınlığında bizim eradan əvvəl XIV-VII əsrə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin nümunələri mövcud idi.



1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transportyoru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə aldı. Ermənilər ən müasir silahlarla şəhərə hücum edərək Xocalı şəhərini yerlə yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdılmış, yandırılmış və insanlar xüsusi qəddarlıqla qətlə yetirilmişdi. Onların içərisində başları kəsilən, gözləri çıxarılan, dərisi soyulan, diri-diri yandırılan və digər şəklə salınanlar çoxluq təşkil edirdi. İstintaq materiallarından məlum olur ki, hücuma rəhbərlik edən və sonralar Ermənistanın müdafiə naziri olan Seyran Ohanyanın, eləcə də 366-cı alayın 3-cü batalyonunun komandiri Yevqeni Nabokixin komandasında əlavə olaraq 50-dən çox erməni zabiti və giziri iştirak ediblər .

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə fevralın 26-sı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı olub. Bu soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 155 xocalılı itkin düşdü. Erməni təcavüzü nəticəsində respublikamızın 900 yaşayış məntəqəsi zəbt edilib, 4366 sosial obyekt, 690 məktəb, 280 uşaq bağçası, 862 klub, 932 kitabxana, 1831 kino qurğusu, 855 məktəbəqədər müəssisə, 656 poliklinika, ambulatoriya, aptek və digər tibb müəssisəsi, xalqın ibadət yeri olan 10 məscid dağıdılıb, Ermənistandan qovulan soydaşlarımızın 380 kəndi zəbt edilib və əhalisinin bütün var-dövləti orada qalıb. Bu faciə zamanı bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülüb, 487 nəfərə ağır xəsarət yetirilib, 1275 sakin – köməksiz qocalar, qadınlar girov götürülüb, ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qalıblar. Erməni hərbçiləri öldürdükləri insanların başlarının dərisini soyub, müxtəlif əzalarını kəsib, körpə uşaqların gözlərini çıxarıb, hamilə qadınların qarınlarını yarıb, bəzilərini diri-diri torpağa basdırıb və yandırıblar.

Həmin gecə Xocalı sakinləri ilə bərabər, 1988-ci ildə Ermənistandan qaçqın düşərək Xocalıya pənah gətirmiş qaçqın və məcburi köçkün azərbaycanlılar, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin mərkəzi olan Xankəndi şəhərini işğal edən zaman qaçıb canını qurtarmış Xankəndi qaçqınları və 1989-cu ildə Fərqanə (Özbəkistan) olayları zamanı Azərbaycana sığınmış Axısxa türkləri (onlar 54 ailə idi) də bu dəhşətli soyqırımının qurbanı olublar.

Ağdam, Şuşa, Laçın istiqamətinə çıxan yollar əvvəlcədən zirehli texniki vasitələrlə, tanklarla kəsilmişdi. Ölümün pəncəsindən xilas olmaq üçün meşələrə, dağlara, dərələrə üz tutub pərən-pərən olmuş adamları güllələyirdilər. Ana baladan, bacı qardaşdan ayrı düşmüşdü. Köməksiz adamların harayı ərşə qalxırdı. Bu harayın içində tövlələrdə yandırılan atların kişnəməsi, mal-qaranın mələməsi də eşidilirdi. Düşmən olduqca amansız idi. Bu məqamda heç kim Xocalının imdadına çatmadı. Xocalı qan içində boğuldu, yanıb külə döndü.

Fevralın 27-də Xocalıdan 250-300 nəfər Ağdama gələ bilmişdi. Dəhşətli xəbərlər eşidilirdi. Bu dözülməz dəhşətləri gözləri ilə görən şahidlər deyirdilər ki, Yarov kəndi tərəfdə 300 nəfər, Ağbulaqda 500 nəfər, Əsgəranda 150 nəfər, Naxçıvanikdə 400 nəfər əsir düşmüşdü. Meşələr qadın və uşaq meyitləri ilə dolu idi.

Qaçıb meşələrdə gizlənə bilmiş onlarla azərbaycanlı günlərlə meşələrdə ac-susuz qalmaqdan, dəhşətli soyuqdan tələf olurdular. Ağır yaralanmış onlarla Xocalı sakini (o cümlədən qocalar, uşaqlar) qanaxmasından ölürdülər. Çünki Ermənistan silahlı qüvvələri onların qaçıb canını qurtara biləcəyi bütün yolları mühasirəyə alıblar. Ölümə məhkum olmuş bu insanlar "bəlkə qaçıb canımı qurtara bildim, onsuz da burda sonum odu" düşüncəsi ilə gecələr qaranlıq düşdükdən sonra Ağdama doğru sürünürdülər: soyuqda, qarın üstündə, ac-susuz, taqətsiz... Bu yolla da çox az adam dəhşətli ölümdən canını qurtara bildi. Qanlı olayları gözləri ilə görüb lentə alan fransalı Jan-iv-Yunet yazır: "Biz Xocalı faciəsinin şahidi olmuşuq. Yüzlərlə meyit gördük. Onların arasında qadınlar, qocalar, uşaqlar və Xocalının müdafiəsində duran adamlar var idi. Bizim ixtiyarımıza vertolyot verildi. Hündürlüyə qalxaraq havada gördüklərimizi kameraya çəkirdik, Xocalı və onun ətrafını lentə alırdıq. Bu zaman erməni hərbi birləşmələri bizim vertolyotu atəşə tutdular və biz məcburiyyət qarşısında qalaraq çəkilişi yarımçıq qoyub geri qayıtdıq. Mən müharibə haqqında çox eşitmişəm. Alman faşistlərinin qəddarlığı barədə oxumuşam, ancaq ermənilər dinc əhalini və hətta 5-6 yaşlı uşaqları belə öldürməklə vəhşilikdə onları arxada qoymuşdular. Biz xəstəxanada, vaqonlarda, hətta uşaq bağçaları və məktəb otaqlarında çoxlu sayda yaralılar gördük."

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanıb, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib.

2002-ci il fevralın 25-də ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bu amansız kütləvi qırğının tarixi-siyasi mahiyyətini göstərib: “Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir”.

Hazırda bu soyqırımını törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində bir sıra beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Ermənistan işğalçı dövlət kimi göstərilib. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılıb.

Bu baxımdan Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər olduqca təqdirəlayiqdir. Belə ki, Fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl fəaliyyət göstərir. Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilən “Xocalı – uşaqların gözü ilə” rəsm müsabiqəsinin, əl işlərinin və fotoşəkillərin dünyanın aparıcı ölkələrində keçirilən sərgisi dünya ictimaiyyətində XX əsrin ən böyük faciəsi haqqında daha dolğun təsəvvür yaradıb.

2007-ci il fevralın 26-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Brüsseldə təşkil olunan “Təcavüzün qurbanları” adlı foto və uşaq rəsmlərinin sərgisi də bu həqiqətlərin beynəlxalq aləmə çatdırılması işinin davamıdır. Fond soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün həmin il fevralın 19-26-da Türkiyənin İstanbul şəhərində və daha 25 vilayətində “Xocalı həftəsi” adlı tədbirlər proqramı çərçivəsində anım mərasimləri keçirib. Bundan başqa, Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılması istiqamətində 2008-ci il fevralın 14-də Berlində keçirilən “Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər” adlı elmi konfrans da son dərəcə əhəmiyyətli olub.

Heydər Əliyev Fondunun dəstəyi ilə Xocalı faciəsinin ildönümü 2010-cu ildə artıq dünyanın 100-dən çox yerində qeyd olunub. Soyqırımına həsr olunan silsilə tədbirlər Fondun hazırladığı təbliğat materialları əsasında həyata keçirilir. 2008-ci il mayın 8-də, Şuşa şəhərinin işğalının ildönümündə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət!” kampaniyası təsis edilib. Hazırda 60-dan çox ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilən “Xocalıya ədalət!” beynəlxalq informasiya və təşviqat kampaniyası da bu işə öz töhfəsini verməkdədir. Bu kampaniyanın məqsədi dünya ictimaiyyətini Xocalı soyqırımı ilə əlaqədar məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır. Hazırda faciənin mənəvi və siyasi-hüquqi səviyyədə tanınmasına yönəlmiş bu kampaniya bir çox ölkələrdə uğurla həyata keçirilir. Bu uğurlu kampaniya başlanandan az sonra İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər nazirləri tərəfindən Xocalı faciəsini kütləvi qırğın kimi qiymətləndirmək barədə qətnamənin qəbuluna nail olunub. 2009-cu ilin iyulunda isə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu ilə ISESCO arasında imzalanmış anlaşma nəticəsində Xocalı faciəsi haqqında məlumatın İKT ölkələrinin tarix dərsliklərinə salınması barədə razılıq əldə edilib. Leyla xanım Əliyevanın Xocalı soyqırımının daha geniş miqyasda tanıdılması təşəbbüsü bir sıra ölkələrdə dövlət səviyyəsində dəstəklənib. 2010-cu il yanvarın 31-də İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının Uqandanın paytaxtı Kampala şəhərində keçirilən və 51 ölkənin parlament heyətləri başçılarının iştirak etdiyi VI sessiyasında forumun təşəbbüsü ilə “İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu ilə İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı arasında əməkdaşlıq haqqında” qətnamə imzalanıb. “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində qəbul olunmuş qətnamədə Xocalı faciəsinə “Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı” və “İnsanlığa qarşı cinayət” kimi qiymət verilib. Qətnamədə “Xocalıya ədalət!” beynəlxalq kampaniyasına həm milli, həm də beynəlxalq səviyyədə tam dəstək verməyə çağıran bənd də öz əksini tapıb. Bu, beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini “insanlığa qarşı cinayət” kimi tanıyan ilk sənəddir. 2009-cu ildən həyata keçirilən və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva tərəfindən irəli sürülən “Xocalıya ədalət!” beynəlxalq kampaniyasının fəaliyyətinin məntiqi nəticəsi olub. Onu da qeyd etmək vacibdir ki, münaqişə ilə bağlı qəbul edilmiş beynəlxalq sənədlər arasında bu qətnamədə ilk dəfə olaraq Xocalı faciəsinə soyqırımı aktı səviyyəsində siyasi-hüquqi qiymət verilib. Nəzərə alsaq ki, İƏT Parlament İttifaqı öz sıralarında dünya parlamentlərinin dörddə birini cəmləşdirən və ən böyük parlamentlərarası beynəlxalq qurumlardandır, onda bu qətnaməni Xocalı faciəsinin erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı aparılan soyqırımı siyasətinin tərkib hissəsi kimi beynəlxalq səviyyədə tanınması və bu cinayəti törədənlərin hüquqi məsuliyyətə cəlb edilməsi üçün çox mühüm əhəmiyyətli bir sənəd kimi qiymətləndirmək olar.

2012-ci il noyabrın 15-17-də İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının (İƏT XİNŞ) Cibutidə keçirilən 39-cu sessiyasında Xocalı faciəsi ilk dəfə olaraq soyqırımı aktı kimi tanınıb. İƏT XİNŞ üzvü olan ölkələr və İƏT-in qurumları kampaniyanın fəaliyyətində fəal iştirak etməyə və dəstək olmağa, bu soyqırımı aktının beynəlxalq və milli səviyyələrdə insanlığa qarşı cinayət kimi tanınması üçün səy göstərməyə çağırılıb. İƏT-in ali orqanı olan və təşkilatın dövlət və hökumət başçılarının iştirakı ilə 2013-cü il fevralın 6-7-də Misirin paytaxtı Qahirə şəhərində keçirilən 12-ci Zirvə toplantısında Xocalı faciəsi soyqırımı aktı və insanlığa qarşı törədilmiş cinayət kimi tanınıb.

Soyqırımının tanıdılması və qətliama siyasi qiymət verilməsi istiqamətində görülən işlər daha ciddi nəticələr verməkdədir. Artıq dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 20-dən çox ştatı Xocalı faciəsini soyqırımı kimi tanıyır.

## "İcbari tibbi sığorta haqqında nələri bilməliyik?"

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının əməkdaşlarına icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı vebinar keçirilib.***




İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin şöbə müdiri Səbinə Quliyeva və Hüquqi aktların və müqavilələrin ekspertizası şöbəsinin baş məsləhətçisi Aynur Hüseynova "İcbari tibbi sığorta haqqında nələri bilməliyik?" mövzusunda təqdimatla çıxış ediblər.

## ADDA-nın müəllimi Avropa Təbiət Elmləri Akademiyasının həqiqi üzvü seçilib

***ATEA-nın Rəyasət Heyətinin iclasında Azərbaycan Dövlət Dəniz Akademiyasının "Dəniz naviqasiyası" kafedrasının dosenti, riyaziyyat üzrə elmlər doktoru Rövşən Hümbətəliyevin riyaziyyat, informatika sahəsində uğurlu araşdırmaları və elmi-praktik fəaliyyəti nəzərə alınaraq Avropa Təbiət Elmləri Akademiyasının akademiki seçilməsi haqqında qərar qəbul edilib.***



Avropa Təbiət Elmləri Akademiyası 2002-ci ildə vahid ümumavropa elmi mühitinin formalaşdırılması məqsədi ilə Almaniyanın Hannover şəhərində yaradılıb. Avropa xalqlarının ümumi elm və mədəniyyətinin bir-birinə yaxınlaşdırılması və demokratik dəyərlərin təbliği ilə məşğuldur.

Rövşən müəllim elm sahəsində əldə etdiyi nailiyyətlərə görə 2015-ci ildə Nyu-York Elmlər Akademiyasının, 2017-ci ildə Rusiya İnformatizasiya Təhsili Akademiyasının, 2019-cu ildə Rusiya Təbiətşünaslıq Akademiyasının həqiqi üzvü, Rusiya Dağ Elmləri Akademiyasının xarici üzvü, 2016-cı ildə Beynəlxalq Təbiətşünaslıq Akademiyanın və Avropa Təbiətşünaslıq Akademiyasının İngiltərə və Şotlandiya bölmələrinin həqiqi üzvü, 2015-ci ildə Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü seçilib. 2016-cı ildə elm, pedaqoji sahədə aldığı nəticələrə görə Avropa Elm Mərkəzi tərəfindən "K.Uşinski", "M.V.Lomonosov", "Avropada keyfiyyət" ("European Quality"), "V.Leybinis", "İ.Nyuton", "A.Nobel" qızıl medallarına, Rusiya Təbiətşünaslıq Akademiyası tərəfindən təsis edilmiş "Təhsildə novatorluğa görə" qızıl medalına, "Yekaterina Velikaya", "Aleksandr Velikiy" ordenlərinə və "Əməkdar elm və texnika xadimi" fəxri adına layiq görülüb.

Qeyd edək ki, Rövşən müəllim həmçinin 2019-cu ilin dekabr ayından Azərbaycan Dövlət Dəniz Akademiyasının İnformasiya Resurs Mərkəzinin müdiri vəzifəsində işləyir.

## "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşması istiqamətində həyata keçirilən işlər müzakirə edilib

***İranın Dövlət Dəmir Yolları idarəsinin rəisi Səid Rəsuli ilə Rusiya Dəmir Yolları Açıq Səhmdar Cəmiyyətinin rəhbəri Oleq Belozerov arasında görüş keçirilib.***



İranın İRNA agentliyi xəbər verir ki, görüşdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşması istiqamətində həyata keçirilən işlər müzakirə edilib. Tərəflər bu beynəlxalq dəhlizin əsas seqmenti olan dəmir yollarının fəaliyyətini nəzərdə keçirib, yükdaşımaların artırılması haqqında razılıq əldə ediblər. Görüşdə qeyd olunub ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi İran, Azərbaycan və Rusiya üçün olduqca əhəmiyyətli xarakter daşıyır və regionun iqtisadi inkişafında mühüm rol oynayacaq.

Qeyd edək ki, bu beynəlxalq dəhliz çərçivəsində fəaliyyət göstərəcək dəmir yolu Azərbaycan ərazisindən keçərək yükləri tranzit olaraq Rusiya və Avropaya daşıyacaq. Layihəyə əsasən, yüklər Cənub-Şərqi Asiya ölkələrindən İranın Çabahar, körfəz ölkələrindən isə Bəndər Abass limanına daxil olacaq. Buradan isə Qəzvin-Rəşt-Astara dəmir yolu ilə Rusiya və Avropaya daşınacaq. Bu marşrutun Qəzvin-Rəşt hissəsi artıq istismara verilib. Rəşt-Astara hissəsində isə inşaat işləri davam edir. Dəmir yolunun bu hissəsi də tikilib başa çatdıqdan sonra yüklər Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu vasitəsilə daşınacaq.

## Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində 38,4 milyon ton yük daşınıb

***Keçən il Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin (TRACECA) Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 38,4 milyon ton, yük dövriyyəsi isə 9 milyard 254,3 milyon ton-kilometr olub.***



Dövlət Statistika Komitəsindən bildirilib ki, yüklərin 20 milyon 656,4 min tonu və ya 53,7 faizi avtomobil nəqliyyatı, 12 milyon 820,2 min tonu və ya 33,3 faizi dəmir yolu nəqliyyatı, 5 milyon 14,8 min tonu və ya 13 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Dəhliz vasitəsilə daşınmış yüklərin 21,8 faizini və ya 8 milyon 382,1 min tonunu tranzit yüklər təşkil edib.

## Dənizdə təchizatla bağlı keçirilən üçtərəfli təlimlərdə "Kertis Vilbur" esminesi, "Hamana" təchizat və "Prerial" gözətçi gəmiləri iştirak edib

***Yaponiyanın özünümüdafiə dəniz qüvvələri ABŞ və Fransadan olan hərbi gəmilərin iştirakı ilə Kyuşü adası yaxınlığında birgə təlimlər keçiriblər.***




Yaponiyanın "Hamana" təchizat gəmisi ABŞ-ın "Kertis Vilbur" esminesi və Fransanın "Prerial" gözətçi gəmisinin iştirakı ilə dənizdə təchizat mövzusunda üçtərəfli təlimlərə qatılıb.

Qeyd edək ki, Yaponiya ilə Fransa arasında 2019-cu ildə dənizdə birgə təchizat və qarşılıqlı xidmət barədə müqavilə imzalanıb. Həmin sənəd iki ölkənin silahlı qüvvələrinə qarşılıqlı şəkildə ərzaq, yanacaq və döyüş sursatı təchizatına şərait yaradıb. Dənizdə təchizatla bağlı həmin təlim sənədə əsasən iki ölkə arasında keçirilən ilk təlim olub.

Bildirilir ki, Fransanın gözətçi gəmisi Şimali Koreya tərəfindən bir gəmidən digər gəmiyə yüklərin ötürülməsinin monitorinqini keçirmək üçün fevral ayından Şərqi-Çin dənizinə ezam edilib.

***Vüqar Ağayev***

## Ömrü dənizlə naxışlanıb

***İnsan yalnız öz boyuna biçilmiş həyat yaşayanda xoşbəxt ola bilər. Bu mənada veteran dənizçi Şahid Orucov da xoşbəxtdir. 67 yaşın zirvəsindən geri çevrilib baxan gəmiçi ötən illəri əbəs yaşamadığını əminliklə deyir.***



Şahid Orucov 1954-cü ildə Qazaxın Kəmərli kəndində doğulub. Uşaqkən hər iki valideynini itirib. Beləliklə, ailənin həm mənəvi, həm də maddi yükü onun üzərinə düşüb.

Veteran dənizçi 1971-ci ildə Bakı Dəniz Yolları Məktəbinə qəbul olub. 1975-ci ildə təhsilini başa vuraraq Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Ruhulla Axundov" gəmisində motorçu kimi fəaliyyətə başlayır. 13 il bu gəmidə çalışaraq müxtəlif vəzifələr tutur. Nəhayət, gərgin əməyi və zəhməti sayəsində çox keçmir ki, baş mexanik vəzifəsinə yüksəlir.

1984-cü ildə Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə keçmiş Yuqoslaviyada inşa edilmiş gəmi-bərələrin ölkəmizə gətirilməsində yaxından iştirak edir.

Bundan başqa, Şahid Orucov 2003-cü ildə Nijni Novqorodda bünövrəsi qoyulan "Prezident Heydər Əliyev" gəmisinin tikintisində, 2012-ci ildə Xorvatiyada Azərbaycan tərəfindən sifariş olunmuş "Bərdə" və "Balakən" gəmi-bərələrinin tikintisində və qəbulunda iştirak edib.

Şahid Orucov bir-birinin ardınca böyük uğurlar qazanır. Səmərəli əmək fəaliyyətinə görə ona hamiyəçi mexaniklərin rəhbəri vəzifəsi həvalə olunur. Dörd il bu vəzifədə işlədikdən sonra Xəzər Dəniz Gəmiçiliyinin Donanmanın texniki istismar xidmətinin rəisi təyin edilir. Sonrakı illərdə Şahid Orucov Gəmiçiliyin baş mühəndisi, "Zaqfederasiya" adına Gəmi Təmiri Zavodunun direktoru olur. 2011-ci ildə yenidən baş mühəndis vəzifəsinə irəli çəkilir. Fəaliyyətinin sonuna kimi bu vəzifə ona etibar edilir.

O, dənizçilik sahəsində 9 səmərələşdirici təklifin müəllifidir. Baş və köməkçi mühərriklərin soyutma sistemində təkmilləşdirmə, dedveyt və yanğın sistemlərində dəyişiklik və s buna misaldır. Bu təkliflərin hər biri sertifikatlaşdırılıb və 1570 layihəli gəmilərdə tətbiq olunub. Təkliflərin hesabına gəmilərin istismar xərcləri müəyyən qədər azalıb.

Təcrübəli mexanikin gərgin əməyi hər zaman yüksək qiymətləndirilib. 2009-cu ildə Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub. 2014-cü ildə isə dəniz nəqliyyatının inkişafındakı xidmətlərinə görə "Əməkdar mühəndis" fəxri adına layiq görülüb.

Təcrübəli dənizçidən uğurunun sirrini də soruşduq. Cavab sadə oldu. Yaxşı oxumaq və yenilikləri mənimsəmək bacarığı onun müvəffəqiyyət düsturudur. O, gənc həmkarlarına da bu düsturdan yararlanmağı tövsiyə edir.

Deyirlər, qocalığın aqibəti gəncliyin nəyə sərf edilməsindən asılıdır. Şahid Orucov dünənindən də, bugünündən də yerlə-göy qədər razıdır. Ən böyük mükafatı isə ömrünün mənalı, gərəkli keçməsindən doğan xoşbəxtlik duyğusudur.

***Rövşən ABDURƏHMANOV***

## Dəniz obyektlərində çalışan neftçilər COVID-19 əleyhinə peyvənd olunur

***Dəniz obyektlərində çalışan neftçilərin karantində olan birinci qrupunun COVID-19 infeksiyasına qarşı peyvənd olunmasına artıq başlanılıb.***



SOCAR-dan bildirilib ki, bu qrupdan olan şirkətin əməkçiləri dənizdəki iş yerlərinə karantin müddətini tam keçdikdən sonra göndəriləcək, iş növbəsini başa vurub qayıtdıqdan sonra isə vaksinasiya qaydalarına uyğun olaraq, ikinci dəfə peyvənd olunacaqlar. Vaksinasiyadan keçmiş və ya COVID-19 infeksiyasına yoluxaraq orqanizmlərində anticisim yaranmış işçilərin isə karantində saxlanılmadan birbaşa işə cəlb ediləcəyi nəzərdə tutulur. Hazırlanmış plana əsasən, bütün dəniz neftçilərinin qısa müddətdə və mütəşəkkil qaydada peyvənd olunmaları üçün qrafik tutulub, zəruri tədbirlər görülüb.

Xatırladaq ki, pandemiya müddətində neft və qaz hasilatının davamlılığının təmin edilməsi və dəniz obyektlərində çalışan işçi heyətin infeksiyaya yoluxmasının qarşısının alınması məqsədilə növbəli iş rejimində çalışan personal indiyə qədər növbədən əvvəl karantin zonasında COVID-19 testindən keçirilir və 7 gün ərzində həmin zonada yaşamalı olurdu. Yalnız təkrar test nəticəsində infeksiyaya yoluxmadıqları təsdiq olunduqdan sonra onlar dəniz obyektlərinə göndərilirdilər. Pandemiyanın yayılmasının qarşısının alınması tədbirləri çərçivəsində ölkəmizin bütün aparıcı şirkət və müəssisələri kimi, SOCAR da xüsusi iş rejiminə keçmiş, dəniz obyektlərində ənənəvi şəkildə tətbiq olunan 15 günlük iş növbəsinin 30 günədək uzadılması məqsədəuyğun sayılmışdı. Lakin iş və istirahət günlərinin illik sayı dəyişməz qalsa da, bu iş rejimi və dəniz neftçilərinin karantində keçirməli olduğu əlavə günlər onlar üçün əlavə psixoloji və sosial gərginlik yaradırdı. Bu zaman işin təşkili baxımından müəyyən çətinliklər yaranır, əlavə vəsait və resurslar sərf olunurdu. Odur ki, 30 günlük iş rejimindən ənənəvi rejimə keçirilməsi imkanları daim araşdırılırdı.

Prezident İlham Əliyevin gərgin səyləri nəticəsində respublikamızda vaksinasiya proseslərinə dünyanın aparıcı ölkələri ilə eyni vaxtda başlanılması əhalinin bütün təbəqələrində böyük ruh yüksəkliyi yaradıb, dərin minnətdarlıq hissi ilə qarşılanıb. Ölkəmizdə vaksinasiya prosesinin belə tezliklə start götürməsi SOCAR-ın dəniz obyektlərində ənənəvi növbəlilik rejiminin bərpa olunması üçün də əlverişli imkan yaradıb. Yaranmış imkanı yüksək dəyərləndirən SOCAR-ın rəhbərliyi dəniz neftçilərinin, ilk növbədə, peyvənd olunması xahişi ilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargaha müraciət edib və bu müraciət müsbət cavablandırılıb.

Qeyd edək ki, SOCAR-ın dəniz obyektlərində 10 mindən çox işçi fəaliyyət göstərir.

## Dənizçilərin üzləşdikləri problemləri həll etmək üçün bütün ölkələr dənizçi peşəsinə "xüsusi diqqətə ehtiyacı olan" peşə kimi yanaşmalıdırlar

***2021-ci il üçün "Dünya dənizçilik mövzusu" gəmiçiliyin gələcək inkişafında əsas rolu vurğulanmaqla dənizçilərə həsr olunub. Dənizçilərin beynəlxalq səviyyədə əsas işçi rolunu oynamasına baxmayaraq, dünyada hökm sürən koronavirus (COVID-19) pandemiyası səbəbindən çətinliklərlə üzləşdiklərinə görə Beynəlxalq Dəniz Təşkilatı dənizçilər üçün 2021-ci ilə dair bir illik fəaliyyət planını hazırlayıb.***




Dövlət Dəniz Agentliyindən verilən məlumata görə, 2021-ci il üçün nəzərdə tutulmuş Dünya dənizçilik mövzusu "Dənizçilər: gəmiçiliyin gələcəyinin əsası" şüarı ilə bu sahədə dənizçilərin hazırda və gələcəkdəki əvəzsiz roluna diqqət çəkir.

Dünyada hökm sürən koronavirus (COVID-19) pandemiyası nəticəsində dənizçilər müəyyən çətinliklərlə üzləşirlər. Belə ki, aylarla gəmilərdə qapalı şəraitdə qalmış çoxlu sayda dənizçi müəyyən məhdudiyyətlər ilə əlaqədar olaraq ölkələrinə geri qayıda bilmirlər. Beynəlxalq Dəniz Təşkilatının Baş katibi Kitak Lim bildirib ki, təxminən bir ildir davam edən bu heyət dəyişikliyi böhranı artıq gəmiçiliyin təhlükəsizliyini təhdid edir və sözügedən böhrana son qoymaq üçün daha çox dövlət bu istiqamətdə səylərini artırmalıdır.

Baş katib Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən dekabr ayında qəbul edilən beynəlxalq əməkdaşlığa dair qətnaməyə istinad edərək əlavə edib ki, dənizçilərin üzləşdikləri problemləri həll etmək üçün ilkin olaraq bütün ölkələr dənizçilik peşəsini "xüsusi diqqətə ehtiyacı olan" peşə kimi təyin etməlidirlər. Bu günə qədər Beynəlxalq Dəniz Təşkilatının bu tövsiyəsinə Azərbaycan Respublikası da daxil olmaqla, 55 üzv dövlət riayət edib.

"Dünya dənizçilik mövzusu" il boyu dənizdə insan həyatının mühafizəsi, dənizçilərin rifahı və lazımi səviyyədə təlim keçmələri üçün bir sıra digər məsələləri də diqqət mərkəzində saxlayır. Eyni zamanda, dəniz nəqliyyatında rəqəmsallaşdırma və avtomatlaşdırma istiqamətləri üzrə ixtisaslı işçi qüvvəsinin hazırlanmasının vacibliyi sözügedən fəaliyyət planında xüsusi vurğulanır.

## Koronavirus pandemiyası dünyadakı sosial qeyri-bərabərliyi daha da dərinləşdirib

***Koronavirus pandemiyası dünyadakı sosial qeyri-bərabərliyi daha da dərinləşdirib. Dünyanın min ən zəngin insanı böhran zamanı onlara dəyən zərəri cəmi doqquz ay ərzində aradan qaldıra bilib. Lakin pandemiyadan əvvəlki iqtisadi vəziyyətə geri dönə bilmək üçün dünyanın yoxsul əhalisinə on ildən də artıq vaxt lazım olacaq.***



Bu məlumat "Oxfam" beynəlxalq təşkilatının apardığı araşdırmada əksini tapıb. Dərc olunan araşdırmada qeyd edilib ki, son bir əsrlik dövrdə ilk dəfə olaraq dünyanın bütün ölkələrində eyni vaxtda iqtisadi qeyri-bərabərliyin güclənməsi təhlükəsi yaranıb. Hazırkı vəziyyət yaxın gələcəkdə iş yerlərinin qorunub saxlanması, əməkhaqqının səviyyəsi və insan haqları sahəsinə də mənfi təsir göstərə bilər. Ona görə də iri şirkətlərin və zəngin insanların ümumi rifahın maliyyələşdirilməsində yaxından iştirakı üçün yeni vergi siyasətinin tətbiqinə ehtiyac yaranacaq.

Araşdırmaya görə, dünyanın ən zəngin on şəxsi 2019-cu ilin fevral ayından indiyədək öz varidatlarını ümumilikdə yarım trilyon ABŞ dolları həcmində artırıb. Bu varidat dünyanın bütün əhalisinin COVID-19-a qarşı peyvənd edilməsinə yetə və pandemiyanın təsiri nəticəsində yaranmış yoxsullaşmanı aradan qaldıra bilər.

Həmçinin müəyyən edilib ki, pandemiya nəticəsində dünyada son 90 ildə ən ağır məşğulluq böhranı yaranıb, milyonlarla insan öz iş yerini və ya gəlir mənbəyini itirib. Pandemiya dövründə daha çox qadınlar işsizlik problemi ilə qarşılaşıblar, çünki qastronomiya və büro menecmenti kimi sahələr pandemiya dövründə ən çox işçi itirən sahələr sırasında yer alır və qadınların 49 faizi bu sektorlarda çalışır. Digər tərəfdən, dünyada səhiyyə və sosial təminat sahələrində işçi qüvvənin 70 faizini qadınlar təşkil edir və koronavirusa qarşı mübarizə də bu sahədə çalışanlar üçün əlavə risklər yaradır.

Araşdırma dünyanın 79 ölkəsindən təxminən 300 iqtisadçı arasında aparılan sorğu nəticəsində hazırlanıb və rəyi soruşulanların 87 faizi pandemiyanın əhalinin gəlir qeyri-bərabərliyini artıracağını bildirib.

***Elgün Niftəli***

## Urmiya gölünün qurumasının qarşısı alınır

***İran və Yaponiya arasında Urmiya gölünün qurumasının qarşısını almaq üçün əməkdaşlıq haqqında müqavilənin müddətinin daha 3 il uzadılması barəsində sənəd imzalanıb.***



7 il əvvəl Urmiya gölünün suyunun qurumasından narahat olan İran hökuməti yaponiyalı mütəxəssislərin xidmətindən istifadə etmək məqsədilə müqavilə imzalamışdı. Müqaviləyə əsasən yaponlar İranın Şərqi və Qərbi Azərbaycan, eləcə də Fars və Xuzistan vilayətlərindəki göllərin vəziyyəti ilə tanış olmalı, onların qurumaması üçün profilaktik tədbirləri həyata keçirməlidirlər.

Qeyd edək ki, yaponiyalı mütəxəssislər Urmiya gölünün qurumasının qarşısını nisbətən alıblar. Göldə suyun çəkilməsi prosesi dayanıb.

Urmiya gölü Şərqi Azərbaycan vilayətinin iqtisadiyyatında əhəmiyyətli rol oynayır. Unikallığı ilə seçilən Urmiya gölünün suyu duzludur. Balıqçılıqla yanaşı, burada duz istehsalı da həyata keçirilir. Gölün ətrafı isə turistlərin sevimli məkanıdır.

***Rabil Kətanov***

# ASCO-da dezinfeksiya işləri ixtisaslaşmış şirkət tərəfindən həyata keçirilir





***Nazirlər Kabinetinin "Azərbaycanda yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair fəaliyyət planı"nın icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) profilaktik tədbirləri davam etdirir.***

Müəyyənləşdirilmiş qrafikə uyğun olaraq növbəti dezinfeksiya işləri "Akademik Zərifə Əliyeva", "Cəlil Məmmədquluzadə", "Cəfər Cabbarlı", "PS-173", "PSK-31", "PSK-40", "Vasif Hüseynov", "Socar-1", "Abşeronskaya-6", "General Əsədov" gəmilərində, eləcə də Pirallahı, Damba və Şimal körpülərinin sahil ərazilərində, yaşayış yerlərində, giriş-çıxış və inzibati ərazilərdə, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun paltardəyişmə otaqlarında və yeməkxanasında aparılıb.

Dezinfeksiya bu sahədə ixtisaslaşmış və müvafiq lisenziyaya malik şirkət tərəfindən həyata keçirilib. Proses ASCO-nun Sosial inkişaf və nəqliyyat şöbəsinin əməkdaşlarının nəzarəti altında yerinə yetirilib.

***Turab MƏMMƏDOV***

# ASCO tullantıların ekologiyaya mənfi təsirlərinin minimuma endirilməsini diqqətdə saxlayır

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) gəmilərin istismarı və sahil obyektlərinin fəaliyyəti nəticəsində yaranan maye və bərk tullantıların su mənbələrinə, qrunta və havaya ekoloji mənfi təsirlərinin minimuma endirilməsini daim diqqətdə saxlayır. Əməliyyatlar zamanı ətraf mühitə zərərin vurulmaması üçün mövcud imkanlar daxilində zəruri qabaqlayıcı tədbirlər görülür.***




2020-ci ilin nəticələrinə görə, ASCO-nun gəmilərindən 102,53 m³ plastmas, 808,97 m³ qida qalığı, 659,52 m³ məişət tullantısı (kağız-karton, əski, şüşə, metal və s), 113,755 m³ istismar tullantısı, 5,359 m³ elektron tullantı, 77 m³ neft qalığı, 5542 m³ döşəməaltı lyal sular, 98393,8 m³ məişət-təsərrüfat çirkab suları bağlanmış müqavilələr əsasında təcrübəli mütəxəssislərə və texniki resurslara malik sertifikasiyalı qurumlara təhvil verilməklə ərazilərimizdən kənarlaşdırılıb.

Bu dövrdə ASCO-nun sahil obyektləri üzrə 159,8 m³ çən dibində formalaşmış neftli şlam, 10,119 ton yanmış qəlib qumu, 1473,15 ton abraziv (gəmi gövdəsindən çıxan pas-boya-çınqıl-qum qarışığı), 75428,84 ton məişət çirkab suyu, 1308 ton neftli döşəməaltı lyal su, 175,755 ton sürtgü yağı, 4968,502 m³ məişət tullantısı (kağız-karton, taxta, əski, şüşə, metal, butulka və s), 1352,2 m³ qida qalığı, 315,2 m³ polimer əsaslı və plastmas tullantı, 126,31 m³ yağlı və neftli tullantı, 117,85 m³ müxtəlif rezin tullantı, 43 ədəd akkumulyator və halvanik element, 663 ,04 m³ istismar tullantı, 15,408 m³ elektron tullantı, 8,57 m³ tibbi tullantı aidiyyatı üzrə təhvil verilib.

Bundan başqa, qeyd edilən dövrdə Dənizkənarı Milli Park və Cəmiyyətin sahil fəaliyyət akvatoriyaları səthindən 64,37 m³ müxtəlif ölçülü əşya yığılıb təhvil verilib.

Ötən il ümumilikdə 1866,106 ton silinmiş qara metal, 17, 965 ton əlvan metal isə təkrar emala göndərilib.

# Xəzər dənizində enerji infrastrukturunun mühafizəsinə, gəmi qruplarının, hissə və bölmələrin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə xüsusi diqqət yetiriləcək





***Azərbaycan Ordusunda yeni tədris ilinin başlanması ilə əlaqədar Hərbi Dəniz Qüvvələrinin (HDQ) birləşmə, hərbi hissə və idarəetmə orqanlarında müvafiq tədbirlər keçirilir.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, yeni tədris ilində HDQ qarşısında qoyulan tapşırıqlar öyrənilir və onların icrası ilə bağlı hərbi hissə komandirlərinə müvafiq göstərişlər verilib. HDQ-nin bütün hərbi hissələrində şəxsi heyətə sıra baxışı keçirilir, bölmələrin maddi-texniki və tədris bazası, həmçinin şəxsi heyətin təchizatı yoxlanılır.

Yeni tədris ilində əsas diqqət Xəzər dənizinin əməliyyat zonasında enerji infrastrukturunun mühafizəsi, komandirlər, qərargahlar və şəxsi heyətin bacarıqlarının, gəmi qruplarının, hissə və bölmələrin qarşılıqlı fəaliyyətinin və döyüş uzlaşmasının təkmilləşdirilməsi, gəmi heyətlərinin döyüş hazırlığı səviyyəsinin artırılması və döyüş növbətçiliyinin daha keyfiyyətli təşkilinə yönəldiləcək.

HDQ-nin sərəncamında olan döyüş gəmiləri, katerlər, müasir silah və digər döyüş vasitələrinin öyrənilməsi üzrə gəmi heyətləri ilə nəzəri və praktiki dərslər keçirilir. Hərbi dənizçilərin sağlamlığına xüsusi diqqət göstərilir.

# 4 gəmi və 1 neft platformasında mobil internet xidməti istifadəyə verilib

***"Bakcell" şirkəti Azərbaycanda ilk dəfə olaraq gəmilərdə və neft platformalarında mobil internet təqdim edib. Bundan sonra şirkətin korporativ abunəçiləri mobil internetdən təkcə quruda yox, dənizdə də istifadə edə biləcəklər.***




Ölkədə fəaliyyət göstərən ən iri neft şirkətlərindən biri ilə dənizdə mobil internet xidmətlərinin göstərilməsinə dair yeni imzalanmış müqaviləyə əsasən, ilkin mərhələdə "Bakcell"in mobil internet xidməti 4 dəniz gəmisi və 1 neft platformasında istifadəyə verilib.

"Biz çalışırıq ki, abunəçilərimiz Azərbaycanın ən üstün mobil şəbəkəsi ilə yanaşı ən keyfiyyətli müştəri təcrübəsindən yararlana bilsinlər. Bu layihə sayəsində gəmidə və neft platformalarında çalışan və dənizdə uzun müddət vaxt keçirən insanlar öz ailə üzvləri və yaxınları ilə daim ünsiyyətdə qalacaqlar. Korporativ və fərdi abunəçilərimizi bazarda ən üstün müştəri təcrübəsi ilə təmin etmək üçün "Bakcell" öz şəbəkəsini və xidmət keyfiyyətini təkmilləşdirməyə davam edəcək. Məqsədimiz xidmətlərimizdən istifadə edən hər kəsin mobil telekommunikasiya xidmətlərinə dair ehtiyac və tələblərini tam şəkildə ödəməkdir", - deyə "Bakcell" şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Dənizdə mobil internet xidmətinin göstərilməsi Azərbaycan üçün bir yenilikdir. Bu yenilik sayəsində gəmi və neft platformalarının personalı saniyədə 10 meqabitə qədər sürəti olan limitsiz və yüksəkkeyfiyyətli mobil internetdən yararlanırlar.

Qeyd edək ki, oxşar layihələr indiyə kimi Meksika, Rusiya və Kanada daxil olmaqla çox az ölkədə həyata keçirilib.

Dünyaca məşhur "OOKLA" şirkəti üç dəfə ardıcıl olaraq "Bakcell" şəbəkəsini Azərbaycanın ən sürətli mobil şəbəkəsi adlandırıb.

Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkəti müasir mobil telekommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl mobil internet xidməti göstərir. "Bakcell" və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik "www.bakcell.com" internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün "www.bakcell.com/az/news" (və ya ingilis dili üçün "www.bakcell.com/en/news") səhifəsinə daxil olun.

Qeyri-Bakcell abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə "Bakcell"in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.

# Konteynerlər Qazaxıstanın Aktau limanından Ələt limanına "Beket Ata" fider gəmisi vasitəsilə çatdırılıb

***Çin-Azərbaycan istiqamətində bu ilin ilk konteyner blok qatarı keçən həftə Bakıya çatdı.***




"ADY Konteyner" MMC-dən bildirilib ki, qarışıq yüklərdən ibarət qatar Çinin Çinqdao şəhərindən Bakıya qədər olan məsafəni 15 günə qət edib. Blok qatarı hər biri 40 futluq olan 50 konteynerdən ibarətdir.

Konteynerlər Qazaxıstanın Aktau limanından Ələt limanına operatoru "ADY Konteyner" olan "Beket Ata" fider gəmisi vasitəsilə çatdırılıb. Konteynerlərdən 15-i Gürcüstanın paytaxtı Tbilisiyə göndərilib.

Layihə Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun üzvləri olan "KTZ Express", "ADY Konteyner" MMC və "GR Logistics and Terminals"ın birgə əməkdaşlığı çərçivəsində həyata keçirilib.

Cari ilin sonunadək "ADY Konteyner" MMC tərəfindən Çin-Azərbaycan istiqamətində 50-dək konteyner blok qatarının nəql olunması planlaşdırılır.

# Son üç ildə minimum pensiya 82 faiz, orta aylıq pensiya 43 faiz, müavinətin orta aylıq məbləği 95 faiz artıb

***Ölkəmizdə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlar, aparılan islahatlar sosial təminat növləri üzrə ödənişlərin hər biri üzrə ciddi artım dinamikası ilə nəticələnib. Bu pozitiv tendensiyanı 2018-2020-ci illərin sosial mənzərəsində də aydın görmək olar.***







Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildirilib ki, qeyd olunan dövrdə pensiyaların minimal məbləği 82 faiz artaraq 200 manat, orta aylıq məbləği 43 faiz artaraq 298 manat təşkil edib. O cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 40 faiz artaraq 328 manata, əlilliyə görə pensiyaların orta aylıq məbləği 49 faiz artaraq 261 manata, ailə başçısını itirməyə görə pensiyaların orta aylıq məbləği 46 faiz artaraq 240 manata çatıb.

Artım tempi müavinət və təqaüdlərdə, ünvanlı sosial yardımlarda da özünü göstərib. Son üç ildə müavinətlərin orta aylıq məbləği 95 faiz, maksimum məbləği 65 faiz artmaqla müvafiq olaraq 119 manata və 150 manata çatıb. Təqaüdün maksimum məbləğində 54 faiz artım baş verib və bu məbləğ 1300 manatdan 2000 manata yüksəlib.

Ünvanlı dövlət sosial yardımının hər ailəyə düşən orta aylıq məbləği 61% artaraq 240 manata çatıb. Bu artımın əsasında, eyni zamanda, ehtiyac meyarı həddinin ildən-ilə artırılması dayanır. Ehtiyac meyarı həddi 2018-2020-ci illərdə 116 manatdan 160 manata çatdırılıb - 38 faiz artıb. Yaşayış minimumunun məbləği də son üç ildə 23 faiz artırılaraq 155 manatdan 190 manata çatdırılıb.

Bütün bu artım dinamikası həmin ödənişlərə yönəldilən vəsaitlərin də artırılmasını şərtləndirmiş olur. Belə ki, 2018-2020-ci illərdə pensiya istiqaməti üzrə ayrılan illik vəsait 36 faiz və ya 1 milyard 188 milyon manat artaraq 4 milyard 477 milyon manata, müavinətlərə ayrılan illik vəsait 120 faiz artaraq 613 milyon manata, təqaüdlərə ayrılan illik vəsait isə 3,5 dəfə artaraq 326 milyon manata çatıb.

Ümumilikdə büdcədən müavinət, təqaüd, ünvanlı sosial yardım üzrə illik xərclərin həcmində 97 faiz artım özünü göstərməklə bu xərclər 588 milyon manatdan 1 milyard 156 milyon manata çatıb.

Son üç ilin timsalında sosial ödənişlərdə baş verən ciddi artımlar ölkəmizin uğurlu inkişafı şəraitində bu artımların qarşıdakı dövrdə də ardıcıl şəkildə davam edəcəyini qeyd etməyə əsas verir.

# Xəzər Dəniz Gəmiçiliyinin rəhbər işçiləri FİLİPP MATYUŞEV

***Sovet dönəminin görkəmli su nəqliyyatı təşkilatçılarından olan Filipp Andreyeviç Matyuşev 1905-ci ildə Xerson quberniyasının Dolinskaya stansiyası yaxınlığındakı yaşayış məkanında dünyaya göz açıb.***

Dəmir yolu xəttinin çəkilişi ilə məşğul olan işçilər tərəfindən salınmış bu məkan sonralar inkişaf edərək şəhər statusu qazanmış və adını da müvafiq olaraq Dolinskaya stansiyasından götürmüşdür.

Ailəsi haqqında təfərrüatlı məlumat olmasa da, bəllidir ki, on dörd yaşlı Filipp dəmir yolu işçisi olan atası 1918-ci ildə dünyasını dəyişdikdən sonra əmək fəaliyyətinə başlayıb. İlk iş yeri Dolinskaya stansiyasının Dəmir yolu xətti xidmətində olub. Yeniyetmə Filipp 1919–1922-ci illərdə burada fəhlə işləyib, çalışqanlığı və zəhmətsevərliyi ilə fərqlənib. Rəhbərlik də səy və əzmkarlığını qiymətləndirərək, Filippi ixtisasa yiyələnməsi üçün sözügedən stansiyanın deposu nəzdində fəaliyyət göstərən Fabrik-zavod şagirdliyi məktəbinə göndərib.

Haşiyə: Fabrik-zavod şagirdliyi (ФЗУ) məktəbləri o dövrdə iri, aparıcı müəssisələrin nəzdində yaradılaraq ixtisaslaşmış kadrlara olan tələbatını təmin etməyə imkan verirdi. Bu məktəblərə ilkin təhsilli 14–18 yaş aralığında olan gənclər qəbul edilirdi və onlara ixtisas təlimi ilə bərabər, həm də ümumtəhsil hazırlığı keçirilirdi. Peşə seçimindən asılı olaraq təhsil müddəti 3–4 il çəkirdi.

F. Matyuşev 1922–1925-ci illərdə adıçəkilən məktəbdə çilingər şagirdi olaraq sənətin incəliklərinə yiyələnib və təhsilini başa vurduqdan sonra 1925–1927-ci illərdə paravozsürənin köməkçisi kimi çalışıb.

F.Matyuşev Qara Dəniz Hərbi Donanmasına xidmətə çağırılarkən 1927–1928-ci illərdə Sevastopolda Maşın məktəbində təhsil alıb. Təhsilini bitirdikdən sonra Xəzər Dəniz Hərbi Donanmasına göndərilib və o, burada 1933-cü ilin noyabr ayınadək hərbi gəmilərin maşın bölmələrində işləyib. Sonrakı dövrdə fəaliyyətini hərbi təlimatçı kimi davam etdirib.

F. Matyuşevin karyerasında dönüş 1935-ci ildən başlayıb. Biliyi, təcrübəsi və məsuliyyəti ilə seçilən Filipp Andreyeviç 1935-ci ilin noyabrında Azərbaycan Kommunist (b) Partiyası Mərkəzi Komitəsinin Sənaye-nəqliyyat şöbəsinə təlimatçı, 1937-ci ilin noyabrında isə Nəqliyyat şöbəsinə müdir təyin edilib.



Nüfuzlu mütəxəssis kimi hörmət qazanmış F. Matyuşevə 1938-ci ilin mayında "Xəzərtanker" Gəmiçiliyinin siyasi şöbəsinə, 1939-cu ilin dekabr ayının 28-də isə "Xəzərtanker" Gəmiçiliyinə rəhbərlik etmək həvalə olunub.

1941-ci ildə Böyük Vətən müharibəsi başlayıb. Müharibənin ilk günlərdən Bakı SSRİ-nin əsas nəqliyyat qovşaqlarından birinə çevirlib. Cəbhədə vəziyyət gərginləşdikcə, Bakıdan daşınan yüklərin həcmi həndəsi silsilə ilə artıb. Yük daşımalarının operativ təşkili, mühüm dövlət tapşırıqlarının vaxtlı-vaxtında icra olunması qüvvələrin tam səfərbərliyini tələb edib.

F. Matyuşev belə sınaq dövründə özünü bacarıqlı təşkilatçı kimi təsdiqləyə bilib. Belə ki, ilk gündən ətrafına təcrübəli, bilikli, məsuliyyətdən qorxmayan kadrları toplayaraq təxirəsalınmaz məsələləri məharətlə həll edib.

1941-ci il oktyabrın 30-da F. Matyuşevə "Xəzərtanker"lə bərabər, həm də hövzədəki ikinci Gəmiçiliyə - "Xəzərdonanma"ya rəhbərlik etmək səlahiyyəti verilib. Çətin müharibə şəraitində F. Matyuşev iki Gəmiçiliyin kollektivini qarşıda duran vəzifələrin icrasına səfərbər edib. Cəbhə arasıkəsilmədən yanacaqla, sürtkü yağları, silah-sursatla təmin olunub. Nəqliyyat vasitələrinin, ixtisaslı kadrların çatışmazlığına və hətta, vaxt darlığına baxmayaraq əhali və müəssisələrin təxliyyəsi, hərbi hissələrin, lend-liz yüklərinin daşınması uğurla yerinə yetirilib.

1942-ci il oktyabrın 1-də F. Matyuşev SSRİ Dəniz Donanması Xalq Komissarının müavini vəzifəsinə təyin edilib.

1944-cü ilin oktyabrında isə F. Matyuşev artıq "Sovet Dunay Dövlət Gəmiçiliyi"nin yaradılması ilə əlaqədar olaraq Ukraynanın İzmail şəhərinə gedib.

Dunay Gəmiçiliyinin yaradılıb təşəkkül tapması müharibənin ağır dövründə olub. Alman faşistləri Sovet Ordusunun təzyiqi altında geri çəkilməyə məcbur qalanda, çağdaş dövrümüzdə erməni qəsbkarları kimi, rastlarına çıxan hər şeyi məhv ediblər: gəmiləri sıradan çıxarıb, farvarterləri minalayıb, limanları dağıdıb, körpüləri partladıblar. Bir sözlə, hər vəhclə çalışıblar ki, Dunay uzun müddət nəqletmə üçün yararlı olmasın.

F. Matyuşev məhz belə bir vaxtda rəhbərliyi öz üzərinə götürərək 1946-cı ilin iyununadək Dunayda batmış gəmilərin çıxarılması, Kiliya şəhərində gəmi təmiri vahidinin yaradılması, Kiliya, Vilkovo və Reni limanlarında körpülərin yenidən qurulması, İzmail dənizçilik və Kiliya sənət məktəblərinin təşkil edilməsi kimi mühüm işlərin icrasını təmin edib.

1946–1949-cu illərdə F. Matyuşev Liman avadanlıqları trestində işlər müdiri, SSRİ Dəniz Donanması Nazirliyinin konstruktor şöbəsində rəis işləyib. 1949–1951-ci illərdə Kamçatka–Çukot Gəmiçiliyinin, 1951–1957-ci illərdə "Dəniztextəchizat" Qara dəniz kontorunun (Odessa şəhəri) rəisi vəzifələrində çalışıb. 1957–1958-ci illərdə İliçevsk şəhərinin 490 №-li zavodunun direktoru olub. 1958-ci ildə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunda inzibati-təsərrüfat işləri üzrə prorektor kimi fəaliyyət göstərib.

Filipp Andreyeviç Matyuşev Lenin, Qırmızı Əmək Bayrağı, 1-ci dərəcəli Böyük Vətən müharibəsi ordenlərinə layiq görülüb.

***Sevda ABDULLAYEVA,***
***İctimaiyyətlə əlaqələr departamentinin aparıcı mütəxəssisi***

## ADDA-nın müəllimlərinin məqalələri xarici jurnalda dərc ediləcək

***Azərbaycan Dövlət Dəniz Akademiyasının "Tətbiqi mexanika" kafedrasının müdiri, professor Vaqif Həsənov, həmin kafedranın dosenti Leyla Həsənova və baş müəllimi Aynur Abdullayeva yanvarın 26-27-də onlayn formada keçirilən "Müasir dünyada aktual elmi araşdırmalar" adlı 70-ci Beynəlxalq elmi konfransda məruzə ilə çıxış ediblər.***

Müəllimlərimizin mövzularının aktuallığını qeyd edən konfrans iştirakçıları məqalələrin "Müasir dünyada aktual elmi araşdırmalar" jurnalında (Ukrayna) dərc olunmasını tövsiyə ediblər.

Məqalələrdə dəniz nəqliyyatının alternativ enerji mənbələrindən istifadə etməklə isti su təminatının araşdırılmasından bəhs edilir.

Müəllimlərimiz həmçinin 70-ci Beynəlxalq elmi konfransının müvafiq sertifikatlarına da layiq görülüblər.

## Xəzərdə problemlə üzləşən Qazaxıstan gəmisi ASCO dənizçilərinin köməkliyi ilə sahilə gətirilib






***Fevralın 8-də Xəzər dənizində Qazaxıstanın "Kazmortransflot" Milli Dəniz Gəmiçiliyi şirkətinə məxsus "Turkestan" yük gəmisində tüstülənmə olub.***

Hadisə ilə bağlı "Turkestan"nın heyət üzvləri yaxınlıqda üzən gəmilərdən yardım istəyiblər. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə (ASCO) məxsus "Merkuri-1" gəmisinin dənizçiləri yanğından təhlükəsizlik sistemlərini hazır vəziyyətə gətirərək çağırışa reaksiya veriblər. Lakin "Turkestan" gəmisinin heyətinin operativ müdaxiləsi nəticəsində tüstülənmənin qarşısı alınıb.

Bundan sonra "Kazmortransflot" Milli Dəniz Gəmiçiliyi ASCO-ya "Turkestan" gəmisinin sahilə gətirilməsi üçün müraciət edib. ASCO-ya məxsus "Yarenqa" yedək gəmisi dərhal hadisə yerinə göndərilib.

"Türkestan" gəmisi təhlükəsiz vəziyyətdə "Yarenqa" gəmisinin köməkliyi ilə fevralın 10-da sahilə gətirilib.

Qeyd edək ki, hadisə zamanı gəmi yüksüz olub. Heyət üzvləri isə özlərini yaxşı hiss ediblər.

## Fevralın 28-də ov mövsümü başa çatacaq



***Azərbaycanda ov mövsümünün sonuna az qalıb. Belə ki, fevralın 28-də ov mövsümü başa çatacaq.***

Bunu Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi "Facebook" səhifəsində yayımlanan "Ekspert saatı"nda deyib.

O bildirib ki, ov mövsümü ötən ilin yay aylarında başlasa da, pandemiya və Vətən müharibəsi ilə əlaqədar bir neçə dəfə müəyyən müddətə dayandırılmışdı: "Mövcud durum, vətəndaşların müraciətləri, karantin tədbirlərinin yumşaldılması nəzərə alınaraq yanvarın ortalarından ov mövsümü yenidən açıldı. Lakin fevralın 28-də mövsümə yekun vurulacaq".

## Bərə həddindən artıq yüklənibmiş…



***Konqo Demokratik Respublikasının ərazisindən keçən Konqo çayında bərənin batması nəticəsində azı 60 nəfərin həlak olduğu bildirilir.***

Mai-Ndombe vilayətində baş vermiş faciə ilə əlaqədar Konqonun humanitar məsələlər naziri Steve Mbikai fevralın 16-da mətbuat konfransı keçirib. O məlumat verib ki, 700 sərnişini daşıyan bərənin batması nəticəsində həlak olanların cəsədləri sudan çıxarılıb, 300 nəfər isə xilas edilib. Hadisə nəticəsində 350-dən çox insan da itkin düşüb. Onların tapılması istiqamətində axtarış-xilasetmə tədbirləri davam edir.

Faciənin baş verməsinin əsas səbəbi kimi bərənin həddindən artıq yüklənməsi göstərilir.

*Oqtay Bayramov*

## "Open Arms" humanitar gəmisi Liviya sahilləri yaxınlığında fırtına səbəbindən təhlükə ilə üzləşmiş miqrantları xilas edib



***Avropa İttifaqının "Open Arms" humanitar gəmisi Liviya sahilləri yaxınlığında fırtına səbəbindən təhlükə ilə üzləşmiş bir neçə qayıqda olan miqrantları xilas edib.***

Gəmi xilas olunan 146 nəfəri Siciliya adasına çatdırıb. Onların arasında çoxlu sayda uşaq və qadın da olub.

Yetkinlik yaşına çatmayanlar qaçqın düşərgələrində yerləşdirilib, böyüklər isə iki həftəlik müddətə karantin gəmilərinə göndərilib.

## Yeni reallıqlar nəqliyyat sahəsinin inkişafına töhfə verəcək

***"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov Kembric Universitetinin Mərkəzi Asiya Forumunda "Regional İnkişaf və Əməkdaşlıq Perspektivləri" mövzusunda yerli və xarici ekspertlər, akademik dairələrin nümayəndələri ilə onlayn görüş keçirib.***




QSC-dən bildirilib ki, görüş zamanı baş direktor Azərbaycanın beynəlxalq nəqliyyat potensialından danışıb, Bakı Limanı barədə məlumat verib. O deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan inamlı qələbədən sonra Cənubi Qafqaz regionunda yeni reallıqlar yaranıb və bu da öz növbəsində nəqliyyat sahəsinin inkişafına töhfəsini verəcək.

T.Ziyadovun sözlərinə görə, 2020-ci il Bakı Limanı üçün çox uğurlu bir il olub və bu il limanın yük dövriyyəsi 20 faiz artıb. Tranzit yüklərin payı ümumi yükaşırmanın 87 faizini təşkil edib və beləliklə, son 5 ilin göstəriciləri ilə müqayisədə irihəcmli nəqliyyat vasitələrinin (TIR) aşırılmasında 5 dəfə, konteynerlərdə 3 dəfə, quru yük terminalında isə aşırılan yüklərin həcmində 3,5 dəfə artım olub.

Baş direktor qeyd edib ki, Türkiyənin artıq sayca üçüncü ixrac qatarı fevralın 6-da Bakı Limanına çatıb. Tibbi və kimyəvi məhsullar daşıyan yük karvanı 6 saat ərzində Bakı Limanında "Beket – Ata" fider gəmisinə yüklənərək Aktau limanına yola salınıb. Həmçinin 2019-cu ildə Bakı Limanı ilə "ÖBB Rail Cargo Group" və Venlo Logistik Qovşağı arasında imzalanmış anlaşma memorandumuna əsasən Avropadan Çinə və əks istiqamətdə yüklərin daşınması nəzərdə tutulub. Çindən ilk yük qatarı Bakı Limanından keçməklə artıq Avropaya çatıb və yaxın zamanlarda Venlodan yük qatarlarının Çinə yola salınması gözlənilir.

Görüşün sonunda T.Ziyadov vebinar iştirakçılarının suallarını cavablandırıb.

## Kür çayı üzərində yeni avtomobil körpüsü inşa edilib

***Respublika əhəmiyyətli Ucar-Zərdab-Ağcabədi avtomobil yolunun 50-ci kilometrində, Kür çayı üzərində inşa edilən yeni avtomobil körpüsü 4 aşırımlı olmaqla uzunluğu 175,4 metrdir.***



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Ucar-Zərdab-Ağcabədi avtomobil yolu Ucar şəhərinin girişindən başlayaraq, 70 kilometr sonra Ağcabədi şəhərinin cənubunda R18 Mingəçevir-Bəhrəmtəpə avtomobil yoluna birləşir. Yolun yenidən qurulması layihəsi üzrə mövcud yol oxu saxlanılmaqla yolun 3-cü texniki dərəcəli yol parametrlərindən 2-ci texniki dərəcəli yol parametrlərinə təkmilləşdirilməsi işləri aparılıb.

Layihə çərçivəsində ümumilikdə uzunluqları 20 metrdən 175 metrədək dəyişən 1-4 aşırımlı 7 avtomobil körpüsü inşa edilib. Ucar-Zərdab-Ağcabədi avtomobil yolu üzərində Kür çayı körpüsündən sonra yolun Qarasu və Göyçay çayları üzərində hər birinin uzunluğu 106 metr olan 4 körpü inşa edilib. Layihə çərçivəsində, həmçinin 9 yeraltı keçid, 26 düzbucaqlı su keçidi, müxtəlif diametrlərə malik 74 suötürücü boru və 30 avtobus dayanacağı da inşa olunub.

Ucar-Zərdab-Ağcabədi avtomobil yolu respublikamızın regionları, o cümlədən bu rayonlar arasında iqtisadi əlaqələrin, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir. Bütün bu xüsusiyyətlərlə yanaşı, ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizlərini əlaqələndirməyə yardımçı yol olmaqla tranzit xidmətlərinin səmərəliliyinin artırılmasında da sözügedən yol mühüm əhəmiyyətə malikdir.

## "Eurasia Daily Monitor" dərgisi Azərbaycanın Lapis-Lazuli dəhlizi üçün əhəmiyyətindən yazıb

***ABŞ-da fəaliyyət göstərən Ceymstaun Fondunun "Eurasia Daily Monitor" dərgisində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) eksperti Nağı Əhmədovun "Azərbaycan, Əfqanıstan və Türkmənistan Avrasiya bağlantısı üzrə əməkdaşlığı dərinləşdirmək məqsədilə üçtərəfli Yol Xəritəsi imzalayıb" sərlövhəli məqaləsi dərc edilib.***

Məqalədə Azərbaycan, Türkmənistan və Əfqanıstandan olan idarələrarası işçi qrupunun rəhbərləri arasında yanvarın 16-da Lapis-Lazuli dəhlizi ilə bağlı əməkdaşlığı daha da genişləndirməyi nəzərdə tutan üçtərəfli yol xəritəsi barədə razılaşmanın əldə edildiyi bildirilir.

Müəllif yol xəritəsinin informasiya texnologiyaları, enerji, telekommunikasiya, nəqliyyat, logistika, ticarət və investisiya kimi bir sıra mühüm sahələrdə üçtərəfli tərəfdaşlığı genişləndirəcəyini, sərhəd və gömrük koordinasiyasının yaxşılaşdırılmasına, Lapis-Lazuli dəhlizi boyunca malların daşınması üçün maneələrin aradan qaldırılmasına kömək edəcəyini diqqətə çatdırır.

Yazıda vurğulanır ki, Azərbaycanın Lapis-Lazuli layihəsində iştirak etmək qərarı regional qarşılıqlı əlaqənin təşviqi üçün onun təşəbbüskar xarici siyasəti ilə uzlaşır. Azərbaycan geostrateji mövqeyinin verdiyi üstünlükdən istifadə edərək Avrasiya bölgəsinin əsas tranzit mərkəzlərindən biri olmaq üçün nəqliyyat sektoruna, o cümlədən dəmir yollarının modernləşdirilməsinə, habelə port və hava limanı infrastrukturunun inkişafına ciddi sərmayə qoyub. Məqalədə, həmçinin bu nəqliyyat dəhlizinin okeana birbaşa çıxışı olmayan Əfqanıstan və Türkmənistan üçün əhəmiyyətinə toxunulur.

Lapis-Lazuli dəhlizinin Avrasiya üçün həlledici strateji tranzit layihəsi olduğu və hər şeydən əvvəl, bütün iştirakçı ölkələrə nəqliyyat infrastrukturlarını və iqtisadiyyatlarını Avropa və Şərqi Asiyanın iqtisadi gücləri ilə birləşdirən daha geniş Şərq-Qərb Avrasiya quru yolu (avtomobil və dəmir yolu) nəqliyyat dəhlizlərinə inteqrasiya etmək imkanı verdiyi diqqətə çatdırılır.

Sonda müəllif bu dəhlizin regional əməkdaşlığı gücləndirəcəyi, Azərbaycan, Türkmənistan və Əfqanıstan arasında qarşılıqlı iqtisadi və mədəni əlaqələri inkişaf etdirərək qarşılıqlı dividendlər gətirəcəyi qənaətinə gəlir. O bildirir: "Artan regional inteqrasiya və Avropa İttifaqının geniş bazarına çıxış Avrasiyanın bu ölkələrinin iqtisadi gələcəyini təmin etmək üçün ən ümidverici fürsət təklif edə bilər".

## İlk silahlı insansız dəniz vasitəsi suya endirilib

***Türkiyənin müdafiə sənayesinin "ULAQ" seriyasının ilk silahlı insansız dəniz vasitəsi suya endirilib.***



Gəmi Türkiyənin müdafiə sənayesinin "ARES" gəmiqayırma və "Meteksan" şirkətlərinin bir neçə ildir davam edən əməkdaşlığı ilə hazırlanıb.

Hazırda təcrübə mərhələsindən keçirilən bu dəniz müdafiə vasitəsi kəşfiyyat, nəzarət, suüstü və asimmetrik qarşıdurmalar, silahlı müşayiət, eləcə də strateji obyekt təhlükəsizliyinin təmini kimi tapşırıqları yerinə yetirmək üçün quru səyyar nəqliyyat vasitələri, qərargah komandirliyi və ya üzən platformalardan idarə oluna biləcək.

Qeyd edək ki, "ULAQ" seriyası Türkiyənin milli raket sistemləri istehsalçısı ROKETSAN-ın ən yeni lazer texnologiyaları ilə təchiz edilib.

*Günel Məlikova*

## İran hərbi dəniz qüvvələrinin sərəncamına 340 hərbi kater verilib

***İran İslam İnqilabının Keşikçiləri Korpusunun (SEPAH) hərbi dəniz qüvvələrinin sərəncamına 340 hərbi kater verilib.***



Bəndər-Abbas liman şəhərində keçirilən təqdimat mərasimində İran ordusunun baş qərargah rəisi, general Məhəmməd Baqeri, SEPAH-ın baş komandanı, general Hüseyn Səlami və başqa rəsmi şəxslər iştirak ediblər.

Qeyd olunub ki, İran Körfəzin təhlükəsizliyinə xüsusi önəm verir. Bu səbəbdən İran Körfəzdə 100-dən çox hərbi gəmi və 200 pilotsuz uçuş aparatı yerləşdirib ki, bunlar da ölkənin sərhədlərini tam şəkildə qorumaq imkanına malikdir.

İran Hərbi Dəniz Qüvvələrinin komandanı Əlirza Təngsiri bildirib ki, bu katerlər sürətlidir və uzaq hədəfləri vurmaq üçün silahlar, su altında əməliyyat aparmaq üçün ləvazimatlarla təchiz olunub. Onun sözlərinə görə, katerlər İranın müdafiə sənayesi tərəfindən hazırlanıb.

*Rabil Kətanov*

## Öz maşınları ilə səfərə çıxmaqdan imtina edənlərə 4,2 min dollar ödəniləcək

***Böyük Britaniyanın hakimiyyət orqanları ətraf mühiti daha çox çirkləndirən avtomobil sahiblərinə öz maşınları ilə səfərə çıxmaqdan imtina edərək ictimai nəqliyyat, velosiped, elektrik skuteri və ya taksidən istifadə edəcəyi halda 3 min funt sterlinqə (4,2 min dollar) qədər ödəniş edəcək.***



"The Times" qəzeti xəbər verir ki, yollarda tıxacların azaldılması və havanın keyfiyyətinin yaxşılaşdırılması üzrə hökumətin dəstəklədiyi pilot proqramı bu ilin yaz aylarında Koventri şəhərində start götürəcək. Ödənişlər 2016-cı ilədək istehsal olunan dizel və 2006-cı ilədək istehsal olunan benzin mühərrikli avtomobillərin sahiblərinə ediləcək. Proqram iki il üçün nəzərdə tutulub, bundan sonra onun effektivliyi qiymətləndiriləcək.

Birləşmiş Krallığın Nəqliyyat Nazirliyinin məlumatına əsasən, britaniyalılar 2019-cu ildə şəxsi nəqliyyat vasitələri ilə ümumilikdə 574 milyard kilometr yol qət ediblər ki, bu da beş il öncəki göstəricidən 11 faiz çoxdur. Velosiped və piyada hərəkəti məsələləri üzrə xeyriyyə təşkilatının rəhbəri Ksavye Braysın sözlərinə görə, Böyük Britaniyada atmosferə atılan və hər il ölkə iqtisadiyyatına milyardlarla dollar zərər vuran karbon qazının böyük hissəsi avtomobillərin payına düşür.

## YARIZARAFAT, YARIGERÇƏK

**Adam olmayanı adam yerinə qoyanda ən azı, bir adama yer olmayacaq.**

**Bəzilərinə elə gəlir ki, dil başdan yekə danışmaq üçündür.**

**Başla ayağa fərq qoyulmayan yerdə çox şey baş-ayaq olar.**

**"Yaxşı düşünsək yaxşı olar" düşüncəsi ilə özüm barədə yalnız yaxşı düşünürəm.**

**Allahın xoşuna gəlsə də-gəlməsə də deməliyəm ki, yaltaqların çörəyini Allah yox, yaltaqlandıqları adamlar verirlər.**

**Uşağın hərəkətləri nə qədər xoş olsa da, uşaq hərəkətləri etmək olmaz.**

**Qırxa kimi adam olmayanların qırxdan sonra adam olacaqlarına heç özləri inanmırlar.**

**Düz yolda əyri getmək nə qədər asandırsa, əyri yolda düz getmək də o qədər çətindir.**

**Baxmaq yox, görmək lazımdır.**

**Ədalət olmayan yerdə də ədalətə bel bağla: Allahın ədalətinə.**

**Balansı ancaq maliyyə işçiləri gözləməlidirlər?**

**Mələkləri göydə axtarırıq. Yerdə ikən.**

**Sahilsiz sularda üzməyi təkcə əsl dənizçilər bacarırlar.**

**Müharibənin və ermənilərin oxşar cəhətləri çoxdur. Hər ikisi fəlakət gətirir.**

**Sevinirəm ki, oğullarımız bizdən igid çıxdılar. Nəvələrimiz onlardan da igid olar in-şə-Allah!**

**Başqa çarəniz yoxdur: qorxunun sizə qalib gələ bilməməsi üçün qorxuya qalib gəlməlisiniz.**

**Yekəbaşlar olan yerdən uzaq durun. Onlar olan yerdə problemlər də heç vaxt balaca olmur.**

**Keçmiş tanışlarımdan biri ilə rastlaşdım. Həmişəki kimi, ən az özünə oxşayırdı.**

**Mən heç nə bilməyəndə hər şey olmasa da, çox şey yaxşı idi. Bütün problemlərim çox şey biləndən sonra başladı.**

**Mən məhəbbətin insanı daha ağıllı etdiyinə inanıram. Sevgi sevənləri ən azı, düz yola çəkmirsə, demək sevgi deyil.**

**Qürurlanmağa heç nə axtarma. Azərbaycanlı olmağın yetər.**

**Nə dediyini özü anlamayan adamla məni üz-üzə qoyma, İlahi!**

**Yaltaqlıq qəribə şeydir. Edən utanmır, eşidən utanır.**

**Bəziləri nöqsanlardan qorxduqları üçün özlərində nöqsan axtarmırlar?**

**Cibimin boş olduğu vaxtlarda başıboşlara baxıram, mən də utanmıram.**

**Hətta gəlişinə sevinmədiyim adam da məni sevindirə bilir. Gedişi ilə.**

**Zamanın ipini çox buraxmaq olmaz.**

**Qulaqlar daha çox həqiqəti eşitmək zamanı tutulur.**

**Nə qədər ki, bizə yalnız düşmən gözü ilə baxırlar, gözlərini daim hədəfdə saxlamaq lazımdır.**

**Nə düşündüyünü bilmirəm. Amma, düşünə bilirsə, artıq bunun özü də pis deyil.**

**Daha yıxılana dirək deyiləm, yıxılma, qardaş!**

**Hər kəs sağlığında o dünyanı bir neçə dəfə görür, sadəcə tez unudur.**

**Əzrayıl heç vaxt gecikmir. Amma tez gələ bilər.**

**Başımızın, əlimizin, gözümüzün etdiyi bütün səhvləri niyə ən az günahkar olan ayağımıza yazırlar?**

**Düzə güvəndim və düzdə qaldım.**

**Bu həyat elə qısa ki... Göz qırpımı da ondan uzun olar.**

**Bəziləri niyə ancaq göylə gedir? Ucuz başa gəlir?**

**Ömründə kitab oxumayanlar nədənsə dərs verməyə meylli olurlar.**

**O yerdə ki, ən çox mənliyi itirirlər, orada yaşamağa dəyməz.**

**Uşaqlarımızın bizə oxşamalarını yox, bizdən qat-qat ağıllı və güclü olmalarını arzulayın.**

**Ermənilərə düşmən kimi baxmayın. Bizim millətin düşməni də gərək mərd ola.**

*Rasif TAHİROV*

## “ASCO Arena”da keçirilən görüş “dənizçilər”in 2:0 hesablı qələbəsi ilə başa çatıb



***Fevralın 19-20-də futbol üzrə Azərbaycan Premyer Liqasında XVI turun oyunları keçirilib.***

Turun açılış matçında “Səbail” klubu “Sabah” komandasını qəbul edib. “ASCO Arena”da keçirilən görüş meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Oyunda hər iki qolu Amil Yunanov vurub. O, 16-cı və 77-ci dəqiqələrdə rəqib qapısına yol tapıb.

Bu qələbədən sonra “Səbail” xal ehtiyatını 16-ya çatdırıb.

Həmin gün "Qarabağ" səfərdə "Sumqayıt"la qolsuz bərabərliyə razılaşıb.

Fevralın 20-də günün ilk görüşündə "Zirə" səfərdə "Keşlə" ilə qollu heç-heçə edib - 2:2.

Turun son matçında "Neftçi" "Qəbələ"ni qəbul edib və "Bakcell Arena"dakı qarşılaşma "Neftçi"nin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Bu nəticədən sonra 33-cü xalını qazanan "Neftçi" liderliyini möhkəmləndirib.

## Ən yaxşı qapıçı

***İtaliyanın "Yuventus" klubunun futbolçusu Canluici Buffon XXI əsrin ən yaxşı qapıçısı elan edilib.***




Müasir dövrün ən yaxşı qapıçılarının reytinqini Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) açıqlayıb.

XXI əsrin ümumi reytinqi 2001 - 2020-ci illərdə dövrün illik reytinqlərinin uyğunlaşdırılması prinsipi üzrə təşkil edilib. Siyahıya “Top-20”yə düşmüş qapıçılar daxil olublar. İllik reytinqdə birinci yeri tutan qapıçıya 20 bal, ikinci yerə 19 bal, sonrakılara da eyni prinsip üzrə ballar verilib.

Canluici Buffon reytinqdə birinci olub. "Real Madrid"in sabiq qapıçısı İker Kasilyas ikinci, "Çelsi"nin keçmiş qolkiperi Petr Çex isə üçüncü pillədə qərarlaşıblar.

## Müntəzəm fiziki aktivlik bütövlükdə sağlamlığa hər cür müalicədən daha yaxşı təsir edir

***Alimlər qeyd edirlər ki, ömrün uzadılması üçün əsas və eyni zamanda, əlçatan üsullardan biri fiziki fəaliyyətdir. Gündə 15 dəqiqə müntəzəm olaraq fiziki fəaliyyətlə məşğul olmaq tövsiyə edilir.***



Fiziki məşqlərin və hərəkətin yaşlanma prosesini yavaşlataraq insanların həyatını uzada biləcəyini sübut edən dəlillər varmı? Bəli, onlar mövcuddur. AARP Təşkilatının (Amerika pensiyaçılar Assosiasiyası) müraciət etdiyi Harvard Universitetinin araşdırması göstərdi ki, "15 dəqiqəlik gündəlik fiziki aktiv fəaliyyət həyat davamiyyətini üç il artıra bilər".

Alimlər səkkiz illik araşdırmanın nəticələrinə əsaslanaraq belə bir həcmdə fiziki aktivliyin ölümün bütün səbəblərdən 14 faiz azalmasına gətirdiyini bildirirlər.

“Hərəkət etmək üçün gündəlik səylər sağlamlıq üçün faydanın əldə edilməsi üçün həlledici əhəmiyyət kəsb edir. Fiziki məşqlər, infarkt, ürək çatışmazlığı, periferik arteriya xəstəliyi və aritmiyalara qarşı həssaslığı azaldır. Siz nəyinki özünüzü daha yaxşı hiss edirsiniz, həm də daha yaxşı işləyirsiniz”. Bunu alınan nəticələri şərh edərək, kardioloq Daniel Forman deyib.

Ekspertin sözlərinə görə, fiziki məşqlərdən danışarkən, alimlər, həmçinin, qeyri-idman formatda fəaliyyəti də nəzərdə tuturlar. Beləliklə, daha çox istədiyiniz fəaliyyət növünü seçib onunla məşğul ola bilərsiniz. Gündəlik məşq kimi sayıla bilən tədbirlərin siyahısı: sürətli yerimə, rəqs, üzgüçülük, velosiped sürmə, tennis oynamaq, çəmən biçən maşınla işləmək, rolik sürmək, qaçış, iplə tullanma, oturub durmalar, maşın yumaq, pilləkənlərlə qalxmaq və s.

Maraqlıdır ki, Avropa Kardioloqlar Cəmiyyətinin araşdırmaları gündəlik 15 dəqiqəlik fiziki fəaliyyətin ömrün uzanmasında faydanı da nümayiş etdirib. Doktor Devid Hupinin rəhbərlik etdiyi mütəxəssislər qrupu belə nəticəyə gəldilər ki, "hər gün ən azından 15 dəqiqə fiziki məşqlə məşğul olan insanlarda ölüm riski 22 faiz az olub".

Bu nəticə, 1011 nəfərdən ibarət bir qrupun (12 il müşahidə olunurdu) və (orta hesabla) 60 yaşında olan 122 417 nəfərdən ibarət digər qrupun (10 il boyunca müşahidə olunurdu) müşahidələrinin nəticələri ilə təsdiq olunur. Müşahidələrin nəticələri göstərir ki, yaşlı insanlar nə qədər fiziki fəaliyyətlə daha çox məşğul olurlarsa, sağlamlıqları üçün də bir o qədər yaxşıdır. Alimlər hesab edirlər ki, "müntəzəm fiziki aktivlik bütövlükdə sağlamlığa hər cür müalicədən daha yaxşı təsir edir”.

## ADDA iddiaçıların ixtisas üzrə fəlsəfə doktoru imtahanında iştirak etmələri üçün qeydiyyat elan edir



Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK) Rəyasət Heyətinin 29 sentyabr 2020-ci il tarixli qərarı ilə “Fəlsəfə doktoru imtahanlarının keçirilmə Qaydası” təsdiq edilmişdir və fəlsəfə doktoru imtahanları 2021-ci ilin yanvar ayından etibarən “Fəlsəfə doktoru imtahanlarının keçirilmə Qaydası”-na uyğun olaraq təşkil edilməlidir.

Qaydaya əsasən, ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı iddiaçının seçiminə uyğun olaraq, dissertasiya işinin yerinə yetirildiyi və ya dissertasiya müdafiəsinin keçiriləcəyi elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində verilir. Fəlsəfə doktoru imtahanlarının verilməsi iddiaçının dissertasiyanın ilkin müzakirəsinə buraxılması üçün mütləq şərtdir.

Bu Qaydaya uyğun olaraq, iddiaçıların ixtisas üzrə fəlsəfə doktoru imtahanında iştirak üçün 2021-ci il fevralın 18-dən martın 1-dək ərizələrin qəbulu elan edilir. İddiaçı şəxsiyyətini təsdiq edən sənədin surəti əlavə olunmaqla ərizə ilə ADDA-ya müraciət etməlidir.

## İddiaçılar turniri dayandırıldığı turdan davam etdiriləcək

***Yekaterinburqda dünya şahmat tacına namizədlərin mübarizə apardıqları, lakin koronavirus pandemiyası səbəbindən dayandırılmış turnir aprelin 19-da davam etdiriləcək.***

Bu barədə Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviç TASS informasiya agentliyinə müsahibəsində bildirib.

O qeyd edib ki, turnir dayandırıldığı turdan davam etdiriləcək: “Qəbul etdiyimiz qərara əsasən, aprelin 19-da 8-ci turun qarşılaşmaları keçiriləcək. On dördüncü turadək oyunlar 10 gün ərzində təşkil olunacaq. Ümid edirik ki, bu dəfə hər şey qaydasında olacaq”.

FIDE-nin prezidenti bildirib ki, şahmatçılar aprelin 17-dən başlayaraq Yekaterinburqa gəlməlidirlər. Turnirin son turu aprelin 28-də keçiriləcək.

İddiaçılar turniri martın 26-da 7-ci turdan sonra yarımçıq dayandırılıb. Yeddi turdan sonra Yan Nepomnyaşi (Rusiya) və Maksim Vaşe-Laqrav (Fransa) 4,5 xalla birinci və ikinci yerləri bölüşürlər. Yarışın digər iştirakçıları Aniş Giri (Niderland), Aleksandr Qrişuk (Rusiya), Fabiano Karuana (ABŞ) 3,5, Kiril Alekseyenko (Rusiya) və Liren Dinq (Çin) 2,5 xal toplayıblar.

Xatırladaq ki, ötən il keçirilmiş dünya kubokunun sahibi kimi iddiaçılar turnirinə vəsiqə qazanan Teymur Rəcəbovun bu nüfuzlu turnirdə iştirakı alınmayıb. Şahmatçımızın koronavirusla əlaqədar turnirin təxirə salınması barədə təklifi FIDE tərəfindən qəbul olunmadığından o, iştirakdan imtina etmişdi.



## COVID-19 dişlərin zədələnməsinə və itirilməsinə səbəb olur

***Gözəl və sağlam dişlərə sahib olmaq, kariyeslə erkən yaşda üzləşməmək və diş ərpinin yaranmasının qarşısını almaq üçün gün ərzində dişləri ən azı iki dəfə fırçalamaq lazımdır. Həmçinin bərk və şəkərli qidalardan mümkün qədər az istifadə etmək məsləhətdir. Qəbul edilən qidalara diqqət yetirmək və altı aydan bir dişləri müayinə etdirmək də tövsiyə olunur.***



Həkimlər qeyd edirlər ki, ağız sağlamlığını qorumaq üçün üç əsas vasitəyə fikir vermək kifayətdir: diş fırçası, pastası və diş ipi. Diş fırçası ən azı üç-dörd aydan bir dəyişdirilməlidir. Qida qalıqlarının diş dibində qalmaması üçün yeməkdən sonra qarqara etmək də məsləhət görülür. Mütəxəssislərin dediyinə görə, qida və içkilərdəki rəng piqmentləri diş minasındakı məsamələri doldurur və nəticədə dişlər saralmağa başlayır. Ona görə hər dəfə qida qəbulundan sonra ağız boşluğunu yaxalamaq vacibdir.

Respublika Stomatoloji Mərkəzinin həkim-stomatoloqu Fidan Abdullayeva AZƏRTAC-a deyib: “Təəssüf ki, çox vaxt belə bir fikir formalaşdırırlar ki, süd dişlərinə fikir vermək lazım deyil, çünki onlar gec-tez töküləcək və əvəzində daimi dişlər bitəcək və s. Amma bu yanaşma uşaqlar böyüdükcə onların formalaşan daimi dişlərində də özünü göstərir. Dişlərin sıradan çıxması və zədələnməsinin əsas səbəbi onlara düzgün qulluq edilməməsi ilə əlaqədardır. Sübut olunub ki, ağız boşluğunda olan problemlər bütün orqanizmə, ən əsası isə həzm sisteminə təsir edir. Dişlərdə problem yaranması çeynəmə funksiyasına mənfi təsir göstərir”.

Müsahibimiz bildirir ki, dişlərdə yaranan problemlərə vaxtında müdaxilə edilməsə, daha böyük fəsadlarla üzləşmək mümkündür. Çox vaxt həmin problemlər düzgün qulluq göstərilməməsi zamanı yaranır: “Ən azı gündə iki dəfə-səhər və yatmazdan əvvəl dişlərin fırçalanması məsləhət görülür. Hər dəfə qida qəbulundan sonra diş fırçası vasitəsilə, fırça olmadıqda ağız boşluğunu yaxalamaqla diş ərpi əmələ gəlməsinin qarşısını almaq olar”.

Son araşdırmalar göstərir ki, dişlər daha bir təhlükə ilə üz-üzə gəlib. Yeni növ koronavirus (COVID-19) infeksiyası təkcə ağciyərlərə, tənəffüs sisteminə deyil, dişlərə də ziyan vurur. “Ağız boşluğu və diş əti qan-damar sistemi ilə zəngin olduğuna görə COVID-19 birbaşa dişlərin zədələnməsinə, itirilməsinə və diş əti problemlərinə səbəb olur. Bundan başqa, COVID virusu birbaşa ağız boşluğunda olan müəyyən reseptorlara da təsir edir”, - deyə həkim-stomatoloq bildirib.

Ağız və diş sağlamlığını qorumaq üçün vitamin və minerallarla zəngin qidalardan istifadə etmək lazımdır. Turş, acı və həddindən artıq şəkərli qidalar dişləri saraldır və ərpin yaranmasına səbəb olur.

## İnfeksiyalarla mübarizədə D vitamininin əhəmiyyəti böyükdür



***İmmunitet sisteminin möhkəmlənməsində D vitaminin çox böyük rolu var. Günəşin ultrabənövşəyi şüalarından alınan həmin vitaminə qış aylarında daha çox ehtiyac duyulur. Orqanizmdə D vitamini çatışmazlığı sızanaqlar, aritmiyalar, yüksək qan təzyiqi və göz yaşının axması ilə özünü büruzə verir. Eyni zamanda D vitamini çatışmazlığı həm də özünü yorğunluq, əzələ zəifliyi, bağırsaqda qıcıqlanma və şişkinliklə də göstərir. Həmin vitamin kalsium və fosfor mübadiləsi başqa olmaqla bir çox proseslərdə iştirak edir. Nevropatiya, immun çatışmazlığı xəstəliklərinin şiddətlənməsi, yuxu zamanı tənəffüsün dayanması və orqanizmdə allergiya olduğu hallarda D vitamininin səviyyəsini yoxlamaq lazımdır.***

Həkim-terapevt Mətanət Cəfərova deyib: “İstər COVID, istərsə də digər viruslara qarşı mübarizədə D vitaminin çox böyük rolu var. Qanda D vitamini yüksək olanlarda həmin viruslara yoluxma riski çox az olur və yaxud yoluxma zamanı xəstəliyi yüngül formada keçir. D vitamini çatışmazlığı dəri quruluğu, saç tökülməsi, hədsiz tərləmə, tez yorulma, əzələ, oynaq sümük və barmaqlarda ağrı özünü göstərir”.

Amerikalı alimlər araşdırma zamanı COVID-19-dan müalicə olunan 100 xəstənin qanındakı Omeqa-3 səviyyəsini müayinə ediblər. Onlardan 14-ü sonradan dünyasını dəyişib. Müəyyən edilib ki, qanda Omeqa-3 səviyyəsi nə qədər yüksəkdirsə, ölüm ehtimalı da bir o qədər azdır.

Müsahibimiz vitamin çatışmazlığını bərpa etməyin yolları barədə deyib: “Ev şəraitində pəncərədən və ya pərdə arxasından D vitamini qəbul etmək olmaz. Mümkün qədər açıq havada günəşin ultrabənövşəyi şüaları qəbul edilməlidir. Həftədə iki-üç dəfə balıqla qidalanmaq orqanizmi Omeqa-3-lə təmin etmək üçün kifayətdir. Eyni zamanda qoz, kətan toxumu, yumurta, göbələk və avakado Omeqa-3-lə zəngin qidalardır”.

Pediatrlar Omeqa-3 yağının üç yaşına qədər uşaqlara dərman şəklində verilməməsini tövsiyə edirlər.

Mütəxəssislər bildirirlər ki, qış ayları olduğuna və sürətlə yayılan infeksion xəstəliklə mübarizə aparıldığına görə indi orqanizmin vitaminlərə ehtiyacı daha çoxdur. Ona görə də vitamin tərkibli qidalardan daha çox istifadə etmək məsləhətdir.

## Peyvənd olunan da qorunma tədbirlərinə riayət etməlidir

***Hazırda hər kəsi yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə qısa müddətdə hazırlanmış peyvəndə nə qədər güvənmək olar sualı düşündürür. Pandemiyanın dünyanı cənginə alması peyvənd hazırlanması prosesini sürətləndirdi. Digər peyvəndlər üçün tələb olunan mərhələlər, strategiyalar həmin peyvənd üçün nisbətən qısaldıldı. Daha öncəki peyvəndlərdə 12-36 ayı əhatə edən birinci-ikinci faza bu peyvənddə daha qısa müddətdə - 6-8 ay ərzində yekunlaşmış oldu. Bir mərhələ bitmədən nəticələr açıqlanırdı və digər mərhələyə keçilirdi. Eyni zamanda, COVID-19 peyvəndinin hazırlanması üçün yatırımlar da kifayət qədər oldu. Bununla yanaşı, koronavirusun genomu müasir texnologiyalar sayəsində çox tez bir şəkildə təqdim olundu. Hazırda da peyvəndlə bağlı çalışmalar davam edir. Təcili istifadə üçün bir neçə peyvənd təsdiqlənsə də, onların üçüncü faza çalışmaları tam da yekunlaşdırılmış hesab olunmur. Uzunmüddətli araşdırmalara ehtiyac var. Lakin peyvəndin effektivliyindən daha çox ilk öncə onun təhlükəsizliyi tələb olunur. İndiyədək təsdiq edilən və hazırda istifadədə olan peyvəndlərdə də təhlükəsizlik məsələsi tam olaraq təmin olunduğuna görə alınan vaksini geniş əhali kütləsi üzərində həyata keçirə bilərik.***

Bunu Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) İnfeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Nəzrin Mustafayeva deyib.



Onun sözlərinə görə, peyvəndin ilk dozası vurulduqda burada hədəf orqanizmlə antigeni tanış etməkdir: “İlk dozanın təsiri zəif olur. İlkin mərhələ tanışlıq mərhələsidir. Orqanizm antigenlə yeni tanış olur, onu nə gözlədiyini bilir və müəyyən cavab reaksiyası hazırlayır. Bu mərhələnin nəticəsində çox cüzi şəkildə qorunma əldə edirik. Yəni bu zaman peyvəndin tam effekti bilinmir. 28 gündən sonra ikinci doza vurulur. Bu zaman da eyni dozada və eynitərkibli peyvənd vurulur. Bu, cavab reaksiyasını daha da möhkəmləndirmək, daha çox anticisim sintezinə nail olmaq üçün həyata keçirilir.

Vaksinasiyadan öncə qanda anticisim miqdarını öyrənmək üçün hər hansı bir analiz verilməsinə ehtiyac yoxdur. Çünki vaksinasiya üçün ciddi əks göstərişlər mövcud deyil. Xəstəliyi keçirib sağalan şəxslərin də vaksin vurdurması tövsiyə olunur. Lakin hazırda əlimizdəki peyvəndlərin sayı məhdud olduğuna görə, son altı ayda xəstəliyi keçirənlər, yəni test nəticəsi pozitiv olması barədə sistemdə məlumat olan şəxslər altı ay tamam olana qədər peyvənd oluna bilməyəcəklər. Sistem həmin şəxslər üçün bloklanmış şəkildədir. Çünki təbii keçirilmiş xəstəliyin özünün də qoruyuculuğu var. Xəstəliyə yoluxub sağalmaqla müəyyən immunitet əldə olunur. Çox nadir hallarda təkrar yoluxmalar da qeydə alınır. Məhz o şəxslər üçün də vaksinasiya tələb olunur. Lakin peyvənd sayına görə onlar vaksinasiyadan 6 ay kənarda qalacaqlar. Vaksin vurdurandan sonra təxminən 70-80 faiz halda qorunmuş hesab olunuruq. Peyvəndləmə prosesi ən azından əhalinin 60-70 faizini əhatə etməyənə qədər vaksinin təsir etməyəcəyi 30 faiz təhlükə altında qalır. Ona görə də peyvənd olunsaq belə, ən azı il sonuna qədər, peyvəndləmə prosesi ölkəmizdə və dünyada kütləvilik əldə edənə qədər qorunma tədbirlərinə riayət etməliyik. Çünki əhalinin həssas qrupları var. Özümüz yoluxmasaq və ya peyvənddən sonra yoluxduqda xəstəliyi çox zəif əlamətlərlə keçirsək belə, digərlərinin yoluxmasına, başqalarının xəstələnməsinə səbəb ola bilərik. Bu səbəbdən qorunma, şəxsi gigiyena qaydalarına, maska istifadəsinə, məsafə saxlanılmasına, kütləvi məkanlardan uzaq durulmasına diqqət edilməlidir. Peyvənddən sonra ilk 24-48 saat ərzində daha çox istirahətə üstünlük vermək, bol maye qəbul etmək vacibdir. Peyvənd vurduranların bəzilərində inyeksiya olunan nahiyədə qızarıqlıq, ağrı, qolda ağrı müşahidə oluna bilər. Bu zaman parasetamol tərkibli ağrıkəsicilərdən istifadə oluna bilər. Həmçinin qol nahiyəsini hündürdə saxlamaqla ağrını azaltmaq olar”.

Həkim-infeksionist bildirib ki, əslində, hər kəs vaksin oluna bilər: “Lakin peyvənd çox yeni olduğuna, uşaqlar və hamilə qadınlar üzərində tədqiqatlar olmadığına görə verilən nəticələr bizi tam qane etmir. Eyni zamanda, uşaqların xəstəliyi yüngül keçirdiyini nəzərə alaraq onlara ən azından bir müddət vaksinasiya tətbiq olunmayacaq. Uşaqlar üzərində aparılan tədqiqatlar tam yekunlaşıb təhlükəsiz nəticələr açıqlananadək belə olacaq. Qeyd edim ki, uşaqlarda xəstəliyi ağır keçirmə faizi 0,2-yə bərabərdir.

Koronavirus və qrip əleyhinə vaksinlər eyni gündə vurula bilər. Bəzən mövsüm nəzərə alınaraq bir neçə vaksin bir gündə vurula bilər. Lakin arada fasilə olacaqsa, bu, iki həftə təşkil etməlidir. Yəni ya eyni gündə vurulmalıdır ya da iki həftə fasilə ilə. Canlı viruslarda həmin fasilə bir ay olmalıdır”.

Hazırda bir neçə ölkədə koronavirusun yeni ştammı qeydə alınsa da Azərbaycanda koronavirusun həmin mutasiyalarına rast gəlinməyib. Buna səbəb kimi digər ölkələrə gediş-gəlişin məhdud olması, ölkəyə daxil olan şəxslərin isə əvvəlcədən COVID-19 testi verməsidir. Necə ki COVID-19 Çində yarandı və bir neçə günə ölkəmizə gəldi, digər ştammların da buraya gəlmə ehtimalı var. Türkiyədə də yeni ştamma yoluxma halları qeydə alınsa da, 80 milyon əhali üçün aşkarlanan saylar çox azdır. Ümumiyyətlə, RNT tərkibli viruslar daim mutasiyaya uğrayır və yeni xüsusiyyətlər əldə edirlər. Son bir il ərzində COVID-19 virusu da dəfələrlə mutasiyaya uğrayıb. Lakin son üç ştammın məşhur olmasının səbəbi virusun xeyrinə bir mutasiyanın baş verməsidir. Bu o deməkdir ki, koronavirus həyatımızdan çıxa bilər. Gözləyirik ki, ya koronavirus mutasiyaya uğrayıb yoluxduruculuq qabiliyyətini itirəcək, ya da onun vilurentliyi, yəni öldürücülüyü azalacaq və o, mövsüm xəstəliyi xarakteri alacaq. Hazırda son məlumatlara görə, istifadə olunan peyvəndlər onun mutasiyalarına qarşı müəyyən qədər təsirlidir. Hətta peyvənd olunmuş şəxslər yeni ştamma yoluxarlarsa, bu, xəstəliyi daha yüngül keçirmələrinə səbəb olacaq. İlkin açıqlanan nəticələr hələ ki, bunlardır”.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 402